www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 aprel 2016-cı il Çərşənbə axşamı № 89 (6410) Qiymәti 60 qәpik

**Xəbər**

## Polis kafedə əməliyyat keçirdi: kriminal aləmlə yaxınlığı olan şəxslər saxlanıldı

yazısı səh.2-də

**Gündəm**

### Putinin müşaviri İrəvandakı Qarabağ danışıqlarının sensasion detallarını açdı



"Ermənilər 5 rayonu qaytarmağa hazırdır, ancaq..."; Moskva Sərkisyandan həm güzəşt gözləyir, həm də onun hakimiyyəti üçün əndişəlidir...

yazısı səh.8-də

### Qızının Vaşinqtonda "dollar qonaqlığı" verdiyi iddia edilən icra başçısı danışdı

yazısı səh.6-da

### Bank sektoruna qarşı məhdudlaşdırıcı qərarlar gəlir

yazısı səh.3-də

### Erməniləri müdafiə edən "Zabil Mədoj"a cənub bölgəsindən sərt təpki

yazısı səh.4-də

### "Tağı Əhmədovun 3 milyonu haradandır ki, Akif Çovdarov da ondan alsın?"

yazısı səh.6-da

### Ermənistanda kimin hakimiyyətdə olması Azərbaycana ən çox sərf edir?

yazısı səh.10-da

### Bakıda BMT-nin forumu keçirilir

yazısı səh.5-də

### Azərbaycan siyasətində pul problemi

yazısı səh.6-da

### Türkiyə ermənilərin iki qardaş ölkənin bayrağını yandırmasına reaksiya verdi

yazısı səh.15-də

### Rusiya kanallarının Azərbaycanda yayımını dayandıraqmı...

yazısı səh.15-də

### 90 saylı dairədən deputatlığa namizədliyini irəli sürən yoxdur

yazısı səh.11-də

## Qarabağ ətrafında yeni təhlükəli situasiya

# SƏRKİSYAN DANIŞIQLARDAN İMTİNA ETDİ - MÜHARİBƏ QAPIDA...

Ermənistanın prezidenti "Bloomberg"ə müsahibəsində Qarabağ danışıqlarını lüzumsuz sayıb; düşmənin təmas xəttindəki təxribatları da Azərbaycanı yeni müharibəyə məcburiyyətində qoyur; Kreml isə vəziyyəti "kövrək" hesab edir; ekspertlər cəbhədəki və danışıqlar ətrafındakı son durumu dəyərləndirdi...




yazısı səh.9-da

## MTN-in tutduğu qadın türmədən dəhşət dolu məktub yazdı

**Ceyran Rüstəmova:** "Nazirlikdə məni döyənlərə yalvardım ki, onkoloji xəstəyəm, əməliyyatdan təzə çıxmışam, vurmasınlar..."

yazısı səh.4-də



*Eldar Namazov:*

### "Hamı başa düşür ki, ordu rəhbərliyi daha böyük əməliyyat planı üzərində işləyir"

yazısı səh.7-də



*Köçəri Nağıbəyli:*

### "Müxalifətdə intriqa aparanlarla birlikdə olmaq düzgün deyil"

yazısı səh.11-də



### Ərdoğan Bakıya gəldi

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016



## Ərdoğan Bakıya gəldi

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana işgüzar səfərə gəlib. APA-nın xəbərinə görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycanın baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər qarşılayıblar.

Ərdoğan Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının Bakıda keçirilən 7-ci Qlobal Forumunda da iştirak edəcək.

Prezident İlham Əliyevin və Azərbaycana işgüzar səfərə gələn Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.

APA-nın məlumatına görə, görüşdə iki ölkə arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Yüksək səviyyəli görüşlərin əməkdaşlığın inkişafı baxımından önəmi vurğulanıb. Əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirilib. Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun əhəmiyyəti vurğulanıb və bu tədbirin beynəlxalq əməkdaşlıq işinə töhfə verdiyi bildirilib.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## Beynəlxalq Banka borcu olanların obyektləri əllərindən alındı

**Azərbaycan Beynəlxalq Bankından götürülən kreditlərlə bağlı bir sıra şirkətlərə qarşı məhkəmə iddiası qaldırılıb. APA-nın məlumatına görə, belə bir iddia əsasında 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsində məhkəmə prosesi keçirilib.**

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Bank Olmayan Kredit Təşkilatı "Aztorq" MMC və "Xəzər Menecment Sistem" şirkətlərinin banka olan borclarının bir hissəsinin onlara məxsus 20 ədəd külək enerjisi ilə işləyən qurğulara yönəldilməsi barədə iddia ərizəsi ilə məhkəməyə müraciət edib. Məhkəmə iddianı təmin edərək şirkətlərin banka olan borclarının bir hissəsinin həmin qurğulara yönəldilməsi barədə qərar qəbul edib.

**Məsələ ilə bağlı sayta açıqlama verən "Xəzər Menecment Sistem" şirkətinin direktoru Adil Mikayılovun vəkili Azər Tanrıverdi bildirib ki, onlar məhkəmə prosesində iştirak etməyiblər:** "Adil Mikayılov həmin şirkətin rəhbərliyindən istefa vermək niyyətindədir, bununla bağlı məsələ qaldırmışıq. Bununla əlaqədar biz adiyyəti vergi orqanlarına müraciət etmişik və prosesdə iştirak etməmişik ".

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankı ilə bağlı başlanılan cinayət işi üzrə bir neçə nəfər həbs edilib. "Xəzər Menecment Sistem" şirkətinin rəhbəri Adil Mikayılov cinayət işi ilə bağlı həbs olunsa da, sonradan azadlığa buraxılıb. Belə ki, Nərimanov Rayon Məhkəməsinin qərarı ilə A.Mikayılov barəsində seçilmiş həbs-qətimkan tədbiri başqa yerə getməmə qətimkan tədbiri ilə dəyişdirilib.

Ötən il iyulun 15-də prezident İlham Əliyev "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin maliyyə durumunun sağlamlaşdırılması və dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə fərman imzalayıb. Həmin fərmanda Maliyyə Nazirliyi və Mərkəzi Bankının "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə məxsus problemli aktivləri müəyyən etmələri, həmin aktivlərin mərhələli şəkildə müvafiq həcmdə likvid vəsait müqabilində bankın balansından çıxarılaraq dövlətə məxsus "Aqrarkredit" QSC Bank Olmayan Kredit Təşkilatının idarəetməsinə verilməsi tapşırılıb.

### Başsağlığı

**Mübariz Hüseynov**
**Sanitariya və Texniki Təmizlik İdarəsinin kollektivi adından Vidadi Əliyevə həyat yoldaşı Reyhan xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Polis kafedə əməliyyat keçirdi; kriminal aləmə yaxın olan şəxslər saxlanıldı






Əməliyyatın keçirildiyi kafe

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi Sabunçuda əməliyyat keçirib. Musavat.com-a daxil olan məlumata görə, əməliyyat Sabunçu rayonunda, Sabunçu vağzalında yerləşən kafedə baş tutub.**

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat zamanı 10-a yaxın şəxs saxlanılıb. Onlar avomobillərə mindirilərək, ərazidən uzaqlaşdırılıblar. Bir neçə şübhəli şəxs isə hadisə yerindən qaçıb.

Saxlanılan şəxslərin kriminal aləmlə yaxın əlaqələrinin olduğu bildirilir.

## Obama: "Minsk sazişi yerinə yetirilənə qədər..."

**"Mən Rusiya ilə yaxşı münasibət istəyirəm". Axar.az "RİA Novosti" agentliyinə istinadən xəbər verir ki, bu sözləri ABŞ prezidenti Barak Obama Almaniyanın Hannover şəhərində çıxışı zamanı deyib.**

"Mən Rusiya ilə münasibətlərin yaxşılaşmasını istəyirəm. Bunun üçün çox işlər görmüşük. Eyni zamanda Rusiyaya qarşı sanksiyalar Minsk sazişi yerinə yetirilənə qədər qüvvədə qalacaq", - Obama bildirib.

Qeyd edək ki, Rusiyadan dəstək alan separatçılar 2014-cü ilin aprelində Ukraynanın şərqindəki Donbas və Luqansk vilayətlərində mərkəzi hökumətə qarşı çıxıb və "xalq respublikaları" yaradıblar. Minsk sazişi Luqansk və Donbas vilayətlərinin Ukraynaya qaytarılması, konstitusiya dəyişiklikləri və geniş muxtariyyətlərin verilməsini nəzərdə tutur.

## Türkiyədən 3 mindən çox cihadçı deportasiya olunub

**Türkiyə hakimiyyəti cihadçı qruplaşmalarla, o cümlədən İraq-Şam İslam Dövləti (İŞİD) terror qruplaşması ilə əlaqədə şübhəli bilinən 3,3 min əcnəbini ölkədən deportasiya edib. Modern.az xarici KİV-ə istinadən bildirir ki, İŞİD-lə əlaqədə şübhəli bilinən daha 41 min əcnəbinin Türkiyəyə gəlişinə qadağa qoyulub.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın nümayəndəsi İbrahim Kalin bəyan eib ki, hüquq-mühafizə orqanları ölkəyə gələn 9,5 min nəfəri sorğu-sual edib. Onların 2 minə yaxınına ölkəyə giriş icazəsi verilməyib.


### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## Con Kerri: "Jurnalistlik cinayət deyil, şərəf medalıdır"

**ABŞ-ın dövlət katibi Con Kerri həqiqəti xəbər verməyin cinayət olmayacağını, doğruları yazmağın isə bir "şərəf medalı" olduğunu vurğulayıb. Musavat.com xəbər verir ki, ABŞ-ın Türkiyədəki səfirliyi C.Kerrinin rəsmi twitter hesabını işarələyərək, "azadmedia" haştaqı ilə etdiyi açıqlamada bunları yazıb: "Jurnalistlik fəaliyyətini yerinə yetirmək, doğruları xəbər vermək cinayət deyil, bir şərəf medalıdır".**

Səfirliyin sosial şəbəkə hesabı isə ABŞ prezidenti Barak Obamanının twitter hesabını işarələyərək bu sözləri yazıb: "MətbuatAzadlığı səssizlərə səs verir, ədalətsizliyi ifşa edir və mənim kimi liderlərin hesab verməsinə şərait yaradır".

❑ **Aygün SƏFƏRLİ**

## 2015-ci ildə Azərbaycan neftinin əsas alıcısı İtaliya olub

**2015-ci ildə Azərbaycan neftinin əsas alıcısı İtaliya olub. «Trend»in məlumatına görə, bunu SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin Neft və neft məhsulları ilə ixrac əməliyyatları şöbəsinin rəis müavini Kamran Məmmədzadə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş SOCAR-ın "Xəzər və Mərkəzi Asiya: Ticarət, logistika, neft emalı və neft-kimya" beynəlxalq konfransında deyib.**

Onun sözlərinə görə, ötən il bütün ixrac edilən neftin 25 faizi İtaliyaya göndərilib: "Ümumilikdə ötən il 35 milyon ton Azərbaycan nefti ixrac edilib. Onun iri idxalçıları İtaliya (25 faiz), Almaniya (13 faiz), İndoneziya (10 faiz), İsrail (9 faiz) və Fransa (8 faiz) olublar".

## İŞİD-ə qarşı kibersilahlarla savaş başlayır

**Aprelin 25-də ABŞ, Almaniya, Fransa, Böyük Britaniya və İtaliya liderlərinin Hannover görüşündə İŞİD-ə qarşı kibersilahlardan istifadə edilməsi imkanları müzakirə edilib. Axar.az xəbər verir ki, bu barədə informasiyanı "Nyu York Tayms" qəzeti yazıb. İŞİD-ə qarşı kibersilahlardan istifadə təklifini ABŞ Prezidenti Barak Obama irəli sürüb. Vaşinqton bunun vasitəsilə İŞİD-ə qarşı yeni cəbhə açmağı planlaşdırır.**

Qeyd edək ki, Hannoverdəki görüşdə əsas müzakirə mövzuları Liviya, İŞİD və Avropadakı miqrasiya böhranı olub.

## Qarabağdan İrəvana daha 36 yaralı əsgər aparıldı

**Dağlıq Qarabağda yaralanmış erməni əsgərlərinin Ermənistana aparılması prosesi davam edir. Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, son bir neçə gündə İrəvanın hərbi hospitallarına daha 36 yaralı əsgər gətirilib.**

Ermənistan Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Hospitalından və "Muratsan" hərbi hospitalından yayılan informasiyaya görə, yaralılardan 3 hərbi qulluqçunun vəziyyəti çox ağır, 2 əsgərin vəziyyəti isə ağır dəyərləndirilir.

Digər hərbi qulluqçuların həyatına real təhlükənin olmadığı bildirilir.

## Dollar ucuzlaşmaqda davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) aprelin 26-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi aprelin 26-na 1,5006 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, dünən dollar 1,5036 manat olub.**

ADR — AZƏRBAYCAN DEMOKRATİYA və RİFAH HƏRƏKATI

## ADR mayın 8-də Məclisin yığıncağını keçirəcək

Bölgə görüşlərini davam etdirən qurum yenidən təsis sənədlərini nazirliyə təqdim edib...

**Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatı bölgə səfərlərini və görüşlərini davam etdirir. Təşkilatın qarşıdakı tədbirləri barədə ADR rəhbəri Qubad İbadoğlu musavat.com-a açıqlama verib. Onun sözlərinə görə, aprelin 22-də ADR Hərəkatının Xaçmaz və Dəvəçi rayon fəalları ilə görüş olub: "ADR-in cari il üçün fəaliyyət proqramını müzakirə etdik".**

Qubad İbadoğlunun sözlərinə görə, ADR həm mərkəzi, həm region səviyyəsində təşkilatlanma ilə məşğuldur: "Biz qərar verdik ki, may ayının 8-də ADR-in Məclisini keçirək. Həm ADR-in komissiyalarını formalaşdıraq. Tezliklə ADR-in komissiyaları fəaliyyətə başlayacaq. Komissiyaların əsas işi həm də proqram və konsepsiyaların hazırlanmasına yönəlib. Hər komissiya öz sahəsində müvafiq sənədlərin hazırlanması işi ilə məşğul olacaq. Eyni zamanda məslicdə biz planlaşdırırıq ki, demokratiyaya keçidlə bağlı yol xəritəsini təqdim edək. Bu, iqtisadiyyatla bağlı bir müddət əvvəlki təklif paketindən sonra ikinci əsas sənəd olacaq. Bununla yanaşı, region səviyyəsində də bizim əsas fəaliyyətimiz rayon təşkilatlarına yönəlib. Rayon təşkilatlarında təsis konfransınadək yığıncaqların keçirilməsi nəzərdə tutulur. Həmçinin rayon təşkilatları mövcud olan yerlərdə onların bazasında təsis toplantılarını, yığıncaqlarını həyata keçiririk. ADR Hərəkatının Azərbaycanın 50-dən çox rayonunda strukturları fəaliyyət göstərir. Eyni zamanda, hansı rayonda ki, ADR yoxdur, o rayonda həmin inzibati ərazi vahidi üzrə ADR strukturunu formalaşdırır. Rayonlardakı fəaliyyətimiz bu istiqamətlərdədir. Təsis toplantılarının keçirilməsi və yeni şöbələrin yaradılması əsas məqsədlərdir".

Qeyd edək ki, aprelin 22-də ADR təsis sənədlərini yenidən Ədliyyə Nazirliyinə təqdim edib. ADR Hərəkatının qeydiyyatı üçün müraciət ərizəsindəki imzalar bütün təsisçilərin iştirakı ilə notarial qaydada təkrar təsdiq olunub. Yeni ərizə Ədliyyə Nazirliyi tərəfindən göstərilən texniki iradlar nəzərə alınmaqla müvafiq dəyişikliklər edildikdən sonra son təsis yığıncağında hazırlanan və qəbul edilən sənədlərlə birlikdə rəsmi olaraq dövlət qeydiyyatına göndərilib.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

# Bank sektoruna qarşı məhdudlaşdırıcı qərarlar gəlir

## Rüfət Aslanlının dediklərindən bəlli oldu ki, dollar kreditləri üzrə heç bir güzəşt gözlənilmir

**Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbəri Rüfət Aslanlının mətbuata müsahibəsi ekspertlər tərəfindən ciddi şəkildə izlənilib. ANS-ə verilən müsahibədə ciddi məqamlar var. Rüfət Aslanlı müsahibəsində bildirib ki, 2015-ci ildə baş verən iki devalvasiya nəticəsində əhali və biznesin xarici valyutada aldıqları borcların manat yükü devalvasiya səviyyəsində, təxminən 95 faiz artıb.**

Belə olan halda insanlar artıq öz borclarını ödəməyə çətinlik çəkməyə başlayıblar. Bu da banklarda müəyyən likvitliyin azalmasına və digər proseslərə gətirib çıxarıb. Onun sözlərinə görə, bu səbəbdən onlar xərcləmələrini gəlirlərə uyğunlaşdırıblar ki, borclanmalar artmasın. Aktivlərin azalması isə artıq bankları başqa rejimdə işləməyə sövq edir.

**Rüfət Aslanlı** pensiyaçılara kredit verilməsinə qadağa qoyulmasının səbəblərini də açıqlayıb. O, bu addımın səbəbləri ilə yanaşı, vəziyyətdən çıxış yolu kimi düşünülən addımlar barədə də danışıb. R.Aslanlının sözlərinə görə, söhbət pensiyaçılara kredit verilməsinin tamamilə qadağan olunmasından getmir. Bu, sadəcə, kredit portfelində pensiyaçıların sayı çox olan banklara edilən tövsiyədir: "Aparılan təhlillər göstərib ki, problemli kreditlərin tərkibində ən həssas qrup olan pensiyaçıların orta aylıq gəliri 160 manatdır. Onların ödədiyi aylıq ödənişlər isə 105 manat civarındadır. Belə olan halda pensiyaçının yaşaması sual doğurur. Digər tərəfdən, palatanın araşdırmaları pensiyaçıların krediti çox vaxt özlərinin yox yaxınlarının ehtiyacı üçün aldığını göstərib. Onlar isə ödəniş etmədikdə borc avtomatik pensiyaçının hesabından tutulur. Bu da onların sosial vəziyyətini pisləşdirir. Hazırda palata borclanmanın həm vətəndaşı, həm də bankları qane edəcək modeli üzərində işləyir". R.Aslanlının sözlərinə görə, borc yükünün gəlirlərə nisbət göstəricisi daha real olmalıdır. Yəni vətəndaşın aylıq ödənişi onun aylıq gəlirinin 50 faizindən az olmalıdır. Vətəndaşın borcu ödədikdən sonra əlində qalan pul isə onun aylıq yaşayışını təmin etməlidir.

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a açıqlamasında bildirib ki, R.Aslanlının müsahibəsində bir çox məsələlər yer alıb:** "Əvvəla, Rüfət Aslanlı mənim yaşayış minimumu barədə aylar öncə dediyimi təsdiqlədi, yaşayış minimumu toxunulmazdır. Aylar boyu dediyim, lakin bankların, kollektorların və icra məmurlarının qəbul etmədiyi həqiqəti banklara nəzarət edən qurumun rəhbəri etiraf etdi. Borclunun və himayəsində olan şəxslərin qanunla müəyyən edilən yaşayış minimumu, böyüklər üçün 146 manat, pensiyaçılar üçün 115 manat, uşaqlar üçün 117 manat məbləğ toxunulmazdır. Üstəlik, vətəndaş sübut etsə ki, real minimal xərcləri, məsələn, tibbi və sair xərcləri daha çoxdur, həmin xərclər həddində də gəlirləri toxunulmazdır. Buna görə də yaşayış minimumundan aşağı rəsmi gəlirləri olan şəxslər borclarını ödəməyə bilər. Yaşayış minimumundan yuxarı rəsmi gəliri olan şəxslər isə yalnız həmin fərq həddində borcu ödəməlidir. Və buna görə heç kəs borcluya heç nə edə bilməz. Bunu mən yox, qanun deyir. Qanunu heçə sayanların diqqətinə isə ən azı Rüfət Aslanlıdan sitatlar gətirin".

**Ekspertin sözlərinə görə, burada əlavə iki məqam var:** "Biri odur ki, palata rəhbərinin sözündən dollar kreditləri üzrə heç bir güzəşt gözlənilmədiyi bəlli oldu. Bu, əslində aydın idi. Ötən aylar ərzində də hökumət nümayəndələri fikirlərini bildirmişdilər. Bu fikir bir daha təsdiqlədi. Heç bir güzəşt olmayacaq. Sadəcə, insanları sakitləşdirirdilər. Bu baxımdan, insanlarımız, borclular üçün nəticə budur ki, hüquqlarını ancaq məhkəmələrdə müdafiə etsinlər. Amma eyni zamanda palata rəhbərinin yaşayış minimumu məsələsinə toxunması o deməkdir ki, ödəniş iqtidarında olmayan şəxslər krediti ödəməsinlər. Palata rəhbərinin də fikirlərinə istinad etsinlər ki, yaşamağa pulum yoxdur.



Rüfət Aslanlı

Palata rəhbərinin gətirdiyi arqumentlə isə tam razılaşmaq olmur. Deyir ki, kimlərəsə güzəşt edilsə, sosial ədalət prinsipi pozulacaq. Bu fikirlə razı deyiləm. Əksinə, bu, sosial ədalət prinsipini təmin edir, bərpa edir. Çünki kimsə əgər kreditini yeni məzənnə ilə ödəyə bilirsə, deməli, maliyyə vəziyyəti azı qənaətbəxşdir. Kim ki ödəyə bilmir, vəziyyəti pisdir və dövlətin köməyinə ehtiyacı var. Dövlət aztəminatlı insanlara, məsələn, əlilliyi olanlara müəyyən dövlət müavinətləri verirlər, biz deyək ki, niyə hamıya verilmir? Əksinə, dövlət əhalinin daha aztəminatlı, zəif təbəqələrinə kömək etməlidir. Burada da eyni vəziyyətdir ki, insanlar borcunu ödəyə bilmədiyinə görə gərək dövlət ona köməklik etsin. İstisna etmirəm ki, sui-istifadə halları var. Bəzi insanlar bəlkə də ödəyə bilir, sadəcə, bilə-bilə ödəmir, güzəşt gözləyir. Amma güman edirəm ki, belə hallar çox deyil və hansısa bir nəçə nəfərə görə əhalinin xeyli hissəsini cəzalandırmağı düzgün hesab etmirəm. Digər gəldiyim nəticələr budur ki, prinsipcə, Rüfət Aslanlının çıxışı tutduğu vəzifəyə görə kifayət qədər peşəkar və səmimi idi. Faktiki olaraq ölkədəki maliyyə vəziyyətinin çətin olduğunu etiraf etdi, bank sisteminin vəziyyətinin pis olduğunu etiraf etdi və sözündən belə başa düşdük ki, bank nəzarəti gücləndiriləcək. Bu da çox düzgün addımdır. Çünki banklarımız özbaşına idilər. Yəni kredit siyasəti və sərtləşdiriləcək. Belə bir nəticəyə gəldim. Orada biz yenə qayıtsaq dollar kreditlərinə dair, orada belə bir ifadə işlətdi ki, banklar öz müsbət addımları haqqında danışmaqdan qorxurlar, qorxmasınlar. Mən isə deyirəm ki, xeyr, qorxmalıdırlar. Banklar hansı yaxşı addımlar atıblar ki? Əgər bank devalvasiyadan sonra müştəriyə deyir ki, gəl sənə 3-4 faiz güzəşt edim, bu, güzəşt deyil. Əgər bank devalvasiyadan yüz faiz gəlir əldə edirsə və vətəndaş da yüz faiz itkiyə məruz qalırsa, bankın faiz dərəcəsində müəyyən güzəşt etməsi güzəşt deyil. Məhz buna görə də banklar bu kampaniyalarını elə də geniş reklam etmirlər və qorxmalıdırlar".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbəri Rüfət Aslanlının açıqlamasından bir neçə nəticə çıxarıb:** "Dollar kreditlərinin sahibləri gözlərini kompensasiyadan çəksinlər. İstehlak kreditlərinin şərtləri daha da sərtləşdiriləcək. Bank sektoru yaxın dövrdə palatadan daha çox məhdudlaşdırıcı qərarlar alacaq. Hökumət manat kütləsini artırmaq niyyətində deyil. Bank sektorunun problemləri bank sektorundan kənardan qaynaqlanır. Biznesdə risklər yüksək olduqca banklar real sektora kredit verməyəcəklər".

**Qeyd edək ki, Maliyyə Bazarlarına Nəzarət Palatası fevralın 3-də yaradılıb. Dövlət başçısı İlham Əliyev bununla bağlı fərman imzalayıb. Fərmanla Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti və Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti ləğv edilərək Maliyyə Bazarlarına Nəzarət Palatasına verilib.**

❑ Röya RƏFİYEVA

# Qazların yolunması mövsümü



Samir SARI

**Dünən internet resurslarında böylə bir xəbər başlığı vardı: "Azərbaycan biznesin yoxlama sayını 500 dəfə azaldıb". Əslində xəbərin başlığı aşağıdakı cür olsa daha yaxşı olardı: "Azərbaycanda biznesin yoxlanılması faktları 500 dəfə azalıb".**

Amma bu heç, bunu ötürək, başlıq boş şeydir, əsas məsələ xəbərin məzmunudur. Xəbərdə bildirilir ki, Azərbaycanda sahibkarlıq fəaliyyətinin yoxlanılmasının iki il müddətinə dayandırılmasından (2015-ci il noyabrın 1-dən) sonra yalnız 44 yoxlama aparılıb, o cümlədən 2016-cı ilin birinci rübündə 34 yoxlama həyata keçirilib.

Özü də bunu jurnalistlərə elə vəzifəli şəxs deyib ki, onun sözünə şəkk gətirmək olmaz. İqtisadiyyat naziri Şahin Mustafayev Sahibkarlar Gününün təsis edilməsinə həsr edilmiş mətbuat konfransında onu da deyib ki, 2015-ci ilin birinci rübündə 19 mindən çox yoxlama aparılıb.

İndi siz rəqəmlərə baxın: 34 yoxlama hara, 19 min yoxlama hara?

Belə çıxır ki, 15 noyabra qədər bu ölkədə yazıq sahibkarların gün-dirriyi yox imiş, adamları ayda azı on dəfə yoxlayırmışlar, yoxlayanların biri gəlir, biri gedirmiş.

Bu, hələ rəsmi rəqəmlərdir. Yəqin ki, iki o qədər yoxlayıcı da müəssisəyə gəlir, amma xətirlər xətrinə, hörmət-rüşvət müqabilində yoxlamadan vaz keçir, öz xəraclarını alıb rədd olurmuşlar.

Başqa cür mümkün deyil. Bura yoxlayıcılar, müfəttişlər, auditorlar, nəzarətçilər, hesablayıcılar ölkəsidir, ən maraqlı və gəlirli iş başqalarını yoxlamaqdır. Çətin də deyil, qovluğunu, çantanı qoltuğuna vurub gəlirsən hansısa müəssisəyə, oturursan rahat bir kabinetdə, deyirsən, nəyiniz var, gətirin, tökün ortalığa, görüm qanuni işləyirsinzmi.

Bizim camaat da, Allaha şükür, nə qədər desən, alay-dolay iş görər, sən bircə ona qanuni iş demə. Qanunlara, standartlara uyğun iş görməkdənsə, gedər dünyanın ən ağır və ən qeyri-standart işini görər, üzünü turşutmaz, amma qanun adı gələndə, sanarsan, cır alça yeyib.

Ona görə də bu ölkədə dədə-babadan müfəttişlərin, yoxlayıcıların işi yağ kimi gedib, həmişə ortada yoxlayıb, qıraqda qoxlayıblar.

Bu üzdən idi ki, sovet dönəmində ən bahalı ali məktəb "Narxoz" idi. O məktəbi qurtaranlar müfəttiş olurdular, sosialist əmlakını dağıdanları yoxlayırdılar, daha dəqiqi, dağıdanlardan öz paylarını alırdılar. Arada mərdimazarlıq edib adam tutdurmaqları da olurdu.

Bir ara bu yoxlayıcıların üzündən iş adamlarının arasında ən çoxişlək söz beləydi: "Vallah, ta canımdan bezmişəm. Gündə biri gəlib yoxlayır. Belə getsə, pencəyimi də götürüb gedəcəm ölkədən".

Əlbəttə ki, "pencəyi götürüb getmək" feilinin arxasında işlətdiyi müəssisəni tamam-kamal bağlayıb getmək nəzərdə tutulurdu və hamı olmasa da, bir xeyli adam məhz bu cür elədi. İndi onların səsi Rusiyadan, Türkiyədən, Ukraynadan, Qazaxıstandan, Belorusdan gəlir.

O gün Astanada bir neçə azərbaycanlı iş adamı ilə söhbət edərkən, onlardan məhz o ölkədə sahibkarlıq fəaliyyətinə müdaxilə edənlər haqda soruşdum (Ümumiyyətlə, bu ölkədə necə gözüqıpıq olmuşuqsa, getdiyimiz ölkələrdə hansısa biznesmenlə həmsöhbət olarkən adətən "xərac tələb edənlər"i soruşuruq). Onlardan biri dedi ki, xeyr, bu ölkədə müəyyən olunmuş vergisini aybaay verən sahibkarın işinə burun soxan yoxdur. Başqa bir sahibkar da dedi ki, sənədləri və işi-gücü qaydasında olan biznesmenə heç kəs ilişmir.

Belə göründü ki, azərbaycanlı yoxlayıcıların qazax həmkarları fərasət sarıdan o məsələ... Necə ola bilər? Yəni bir şey tapıb sahibkarları dolaşdırmaq, ilişdirmək olmazmı? Çoxmu kristaldırlar onlar - yəni sahibkarlar və müfəttişlər?

Bax, indi hökumət sahibkarlıq fəaliyyətinin yoxlanılmasını iki illiyə dayandırmasaydı, təkcə bu rüb bizimkilər 20 min sahibkarı dolaşdırmış və çığırda-çığırda pullarını əllərindən almış olardılar. Amma bu il elələri cəmi 34 olub. Kim bilir, nə ediblərmiş.

Belə baxanda yoxlayıcılar da yazıqdırlar, ailə saxlayırlar, indi yoxlamaya getmədən necə dolanırlar, nə yeyib-içirlər?

Yenə ümid iki il sonrayadır. Ona qədər sahibkarlar yaxşıca pullanacaq, ev qazı kimi tüklənəcək, yağlanacaqlar. 2018-də ilk qar yağdımı, qazların yolunmaq mövsümü başlayacaq, yoxlayıcılar onları tutub yolacaq, qazana ("katyol"a) basacaqlar.

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

# Erməniləri müdafiə edən "Zabil Mədoj"a cənub bölgəsindən sərt təpki

**Əslən Masallı rayonunun Mahmudavar kəndindən olan, hazırda Ermənistanda yaşayan Zabil Məhərrəmovun açıqlamaları Azərbaycanda ciddi etirazla qarşılanıb. Xüsusilə cənub zonası özünü "Talışıstan TV telekanalının xəbərlər xidmətinin rəhbəri" kimi təqdim edən bu şəxsə öz sərt təpkisini göstərir.**

Yada salaq ki, sosial şəbəkələrdə şeirlərini "Zabil Mədoj" təxəllüsü ilə paylaşan Məhərrəmov deyib: "Azərbaycan talışları, ləzgiləri, bütün milli azlıqları istismar edir. Mən bütün talışlara müraciət edərək deyirəm: bizim qardaşlarımız türklər yox, ermənilərdir. Ermənistan bizim pənahımızdır". Xəyanətkarlığın ən yüksək zirvəsinə qalxmağı özünə sığışdıran bu şəxs son günlərdə əyninə Ermənistan ordusunun hərbi formasını geyərək kamera qarşısına keçir, ermənilərin şəninə təriflər söyləyir, Azərbaycan dövlətinə və millətinə təhqirlər yağdırır. Əslində yeni deyil. Bu ayın əvvəllərində cəbhədə baş verən 4 günlük savaşda o, əsl kimliyini sübut etmişdi.

Qeyd edək ki, "Talışıstan TV" Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən 2014-cü ilin sonlarında yaradılıb. Bu "qurum"un ideya təşəbbüskarı Azərbaycanda separatçılığa görə həbs olunan, hazırda isə Hollandiyada yaşayan və Azərbaycana nifrətini gizlətməyən, Ermənistanın xüsusi xidmət orqanları ilə sıx təmasda olan Ələkrəm Hümbətovdur.



**Yadigar Sadıqov:** "Zabilin belə mövqe tutması yenilik deyil"



**Xasay Fərzulla:** "Bu, minlərlə talış vətəndaşımıza həqarətdir"

**Cənub zonasından olan hərbi ekspert Üzeyir Cəfərov sosial şəbəkələrdə "Zabil Mədoj"un xəyanətkarlığı ilə bağlı öz statusunda məsələyə sərt təpki göstərib:** "Son günlər bəzi mətbu orqanlarda bu şərəfsizlə bağlı çoxlu yazılar və müzakirələr gedir. Mən də Azərbaycanımızın ayrılmaz parçası olan cənub zonasının övladı kimi, bu məsələyə öz fikrimi bildirmək istəyirəm. Xəyanətkarın, satqının və dönüyün nə vətəni, nə xalqı, nə də milləti olur! Bildiyiniz kimi, bu cür məxluqlar ancaq və ancaq iradəsiz və lazımsız olduqlarına görə onlardan çox asanlıqla istifadə edilir. Öz çirkin niyyətlərini yerinə yetirmək üçün onlardan istifadə olunur. Bu sapı özümüzdən olan baltanın bir zamanlar doğulduğu cənub zonasına heç bir aidiyyəti olmayıb və ola da bilməz. Doğulduğu ölkədə, həmçinin Rusiyada bazarda belə özünə normal iş tapa bilməyib, indi də gedib mənfur erməni dığalarına qoşulan birisindən heç vaxt insanı keyfiyyətlər gözləməyə dəyməz. Bu satqın və şərəfsiz adam çox tezliklə elə ermənilərin əli ilə məhv ediləcək və adını da qoyacaqlar ki, guya onu Azərbaycan aradan götürdü".

**Lənkəranda yaşayan Müsavat başqanının müavini Yadigar Sadıqov "Zabil Mədoj"un bu yolla pul qazandığını söylədi:** "Xüsusi etirazım olmayacaq. Zabilin belə mövqe tutması yenilik deyil. Adam özünə bu cür pul qazanır. Hər kəsin özünə rəva görəcəyi və görməyəcəyi hədlər var. Milli münasibətləri Zabil yox, onun əməllərinə qeyri-adekvat reaksiya, bunun bütün talışlara aid olunması qızışdıra bilər. O səbəbdən də məsuliyyətli olmağımız gərəkir".

**Müsavatın Masallı rayon təşkilatının sədri Xasay Fərzulla bu şəxsin İrəvana getməmişdən öncə də bu cür fikirlərlə yadda qaldığını bildirdi:** "Onun aşağılayıcı fikirlərlə saxta millətçilik ruhu yayması təbii ki, qəbuledilən deyil. Bu gün də dedikləri absurd fikirlərdir. Bu şəxsin yəqin ki, ciddi maliyyə mənbələri var. Onun dediklərinin əsaslı olması ehtimalı sıfırın altındadır. Talış xalqının onu dəstəkləyəcəyi qətiyyən mümkün deyil. Bunu qətiyyətlə pisləyirik. Bu gün Azərbaycanda bütün millətlər dostluq, barış şəraitində yaşayırlar. Bu cür şəxslər nəinki cənub bölgəsində, bütövlükdə Azərbaycanda qəbuledilən deyil. Talış separatizmi heç vaxt olmayıb - nə keçmiş tarixdə, nə sovet dönəmində, nə də müstəqillik illərimizdə bu cür hallar olmayıb. Talış xalqının hüquqlarına gəlincə, doğrudur, Azərbaycanda insanların siyasi, iqtisadi və digər sahələrdə hüquqları pozulur, ancaq bunun milliyyətə aidiyyəti yoxdur. Söhbət ümumi problemlərdən gedə bilər. Zabil Məhərrəmovun dedikləri Azərbaycan uğrunda şəhid olan minlərlə talışa, onların ailələrinə, eləcə də bu gün də canından keçməyə hazır olan minlərlə talış vətəndaşımıza həqarətdir".

❑ **Cavanşir ABBASLI**

# MTN-in tutdurduğu qadın türmədən dəhşət dolu məktub yazdı

## Ceyran Rüstəmova: "Nazirlikdə məni döyənlərə yalvardım ki, onkoloji xəstəyəm, əməliyyatdan təzə çıxmışam, vurmasınlar"

**"Bundan sonra məni MTN-in binasına apardılar. Orada MTN-in əməkdaşları dedilər ki, onlara Səkinə və onun ailə üzvlərinin bildirdiyinə görə, mən qeyri-qanuni sahibkarlıqla məşğul oluram. Mən isə dedim ki, yalan deyirlər. Bu söz ağzımdan çıxmamış Əli adlı şəxs qolumun üstünə vuraraq hədə-qorxu gəlməyə başladı".**

Bu sözləri "Yeni Müsavat"a ünvanladığı müraciətində **hazırda həbsdə olan Ceyran Mikayıl qızı Rüstəmova** yazıb. Məktub müəllifi başına gələnləri bu şəkildə anladır: "Səkinə Sadıxova və bir qrup şəxs ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları ilə qabaqcadan əlbir olaraq Axundov parkının tam ortasında heç bir səbəb göstərmədən əllərimi arxaya buraraq zor tətbiq edərək maşına mindirdilər. Bu vaxta qədər də Səkinə Sadıxova və onun ailə üzvləri başıma olmazın oyun açmışdılar. Onlar elə bir qüdrətə sahibdirlər ki, məni istədikləri vaxt hüquq-mühafizə orqanlarına apartdırır, işgəncələr verdirirdilər. Məni tutandan sonra MTN binasına apardılar. Orada nazirliyin əməkdaşları dedilər ki, onlara Səkinə və onun ailə üzvlərinin bildirdiyinə görə mən qeyri-qanuni sahibkarlıqla məşğul oluram. Dedim ki, yalan deyirlər. Bu söz ağzımdan çıxmamış Əli adlı şəxs qolumun üstünə vuraraq hədə-qorxu gəlməyə başladı. Ona ağır onkoloji xəstə olduğumu, əməliyyatdan yenicə çıxdığımı dedim, xahiş etdim ki, məni vurmasın. Sözlərim heç vecinə də olmadı. O, yenə də mənə hədə-qorxu gəlməyə davam etdi. Bu zaman Azər adlı MTN əməkdaşı otağa daxil oldu. Məni Əlinin əlindən alaraq o biri otağa apardı. Dedi ki, "Reyhan Musa qızı Hüseynova da gəlib, əgər canını buradan qurtarmaq istəyirsənsə, 200 min manat ver, sənin buradan çıxıb getməyinə köməklik edim".



Bizə bir həftə pulları düzəldib gətirməyə vaxt verdilər. Müddət bitənə qədər onların tələb etdiyi məbləğin yalnız 100 min manatını düzəldib apardıq. Lakin MTN əməkdaşları əl çəkmədilər. Dedilər ki, bir həftə də vaxt veririk. Yerdə qalan pulu da düzəldib gətirəcəksən. Yoxsa sənin və ailə üzvlərinin adına nə varsa, hamısını göyə sovuracağıq. Müddət bitsə də, pulu düzəldə bilmədim".

**Məktub müəllifi yazır ki, bundan sonra onun və ailə üzvlərinin qara günləri başlayıb:** "Belə ki, MTN əməkdaşları mənim və ailəmin adında olan əmlakları Daşınmaz Əmlakın Reyster Xidmətindən aldılar. Bir ay sonra evini aldığım Səkinə Sadıxova və onun oğlu Səməd Sadıxov, əri Fikrət İsmayılov MTN-in sifarişi əsasında Bakı Şəhər Prokurorluğunda heç bir sübut-dəlil olmadan mənə, keçmiş qonşum olan Reyhan Hüseynovaya, həyat yoldaşım Yaşar Rəsulova, bacım Kəmalə Rüstəmovaya, Mətanət Gülməmmədovaya Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə ittihamlar verdirdi. Bu ilin martında cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərildi. Həmin MTN əməkdaşlarının mənim başıma gətirdikləri qanunsuz hərəkətlər barədə bir il heç bir yerə məlumat verməmişdim. Çünki onlar mənə hədə-qorxu gəlmişdilər ki, adımızı heç bir yerdə hallandırma. Daha sonra onların başıma açdıqları zorakılıqlar barəsində 6 noyabr 2015-ci ildən şikayət ərizələri ünvanlamışam. Başda prezidentimiz olmaq şərti ilə Bakı Şəhər Prokurorluğu və bütün güc strukturlarına".

**Məktub müəllifi qeyd edir ki, hələlik MTN əməkdaşlarının ona qarşı etdikləri zorakılıqla əlaqədar heç bir tədbir görülməyib:** "Səkinə Sadıxova borca pul verdiyim, ev aldığım insanları bir araya yığaraq qapı-qapı gəzib, onlara deyib ki, arxamızda MTN durub. Neynirsiniz Ceyrana pul verib?! Ona verməli olduğunuz o puldan bir azını MTN-ə verək, evləriniz ondan alınsın, borclarınız silinsin. Ceyran və onun ailə üzvlərinə də cinayət işi açdırıb dama saldıraq. Elə də oldu. Səkinə Sadıxova MTN-in köməkliyi və sifarişi ilə yalançı zərərçəkmişlərdən ibarət dəstə yaratdı. Mən və ailə üzvlərim vaxtilə onlara yerdə qalan 100 min manatı çatdıra bilmədiyim üçün artıq 2 ilə yaxındır ki, həbs həyatı yaşayırıq".

**Məktub müəllifi qeyd edir ki, hüquq-mühafizə orqanlarına yazdığı şikayətləri cırıb zibil qutusuna atırlar:** "Qeyd etdiyim işlərlə bağlı mənim və ailə üzvlərimin Azərbaycan Respublikasının adından qətnamələrimiz var. Hətta yerli məhkəmənin qərarlarını Azərbaycan Respublikasının Ali Məhkəməsində də qüvvədə saxlayıblar. Məhkəmə qərarları qüvvəyə minəndən sonra icraya da göndərilib. Mən və ailə üzvlərim Azərbaycan Respublikasının qanunlarına hörmət edərək qanuni sənədlər əsasında borc vermiş və mənzil almışıq. Əgər bu qanunlar gələcəkdə məmurların əlində oyuncaq olacaqsa, nə üçün Milli Məclis tərəfindən qəbul olunur?! Bu qanunlar məmurlar tərəfindən zibil qutusuna atılacaqsa, bu qədər hörmətli şəxsiyyətlər nəyə görə onları imzalayır? Bütün bunlar bizim hüquqlarımızın pozulması ilə yanaşı, Azərbaycan Respublikasına da hörmətsizlikdir. Mənin, ailə üzvlərimin və bizim kimi daha bir neçə şəxsin başına gələn bu qanunsuz hərəkətlərin əsas səbəbkarları tanışım Sadıxova Səkinə, oğlu Sadıxov Səməd, əri İsmayilov Fikrət Tofiq oğlu, Babayeva Xavər və onu əri Babayev Eyyub, onların oğulları Babayev Elşad və Emilin rəhbərliyi altında MTN əməkdaşlarının təzyiqləri olub».

**Məktub müəllifi prezidentə müraciətlə yazır:**

"Möhtərəm Cənab Prezident!

Yazib Sizdən xahiş edirəm ki, mənim haqq səsimi eşidib bizlərə qarşı törədilən qanunsuzluğa, ədalətsizliyə və insanlıqdan kənar hərəkətlərə yol vermiş şəxslər barəsində cinayət işi başlansın. Xahiş edirəm ki, bu barədə Baş Prokurorluğa göstəriş verəsiniz. Sizdən son ümid yerim kimi xahiş edirəm".

❑ **E.HÜSEYNOV**

Yeni Müsavat
N 89 (6410) 26 aprel 2016

# Bakıda BMT-nin forumu keçirilir

**Aprelin 25-də Bakıda Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu öz işinə başlayıb.**

Forum çərçivəsində keçirilən gənclər tədbirində BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz əl Nasir , Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyeva, Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov iştirak ediblər.

## Leyla Əliyeva: "Çağdaş cəmiyyət sınaq mərhələsindədir"





APA-nın məlumatına görə, çıxış edən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyeva bildirib ki, biz Azərbaycanı sevirik. Əminik ki, siz də bunlara görə Azərbaycanı sevəcəksiniz: "Dünyada hər saniyə aclıqdan 1 nəfər ölür. Uşaqlar daha tez-tez həyatını itirir. FAO dünyada aclığın aradan qalxmasına çalışır. Biz birlikdə çalışmalıyıq ki, aclıqdan heç kəs ölməsin. Qida çox vacibdir, həm də mədəniyyətlərarası əlaqənin bir komponentidir. Qida təhlükəsizliyi çox vacibdir. Bu baxımdan FAO və BMT-nin Sivilizasiyalar Alyansı vahid fəaliyyət göstərərək qida təhlükəsizliyini təmin edir və mədəniyyətlərarası dialoqu təbliğ edir. Biz İDEA kampaniyasını həyata keçiririk. İDEA çərçivəsində son 5 ildə 5 milyondan çox ağac çəkmişik. Yerli icmalarla işləyirik və ağacların kəsilməsinin qarşısını alırıq. Beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmağa çalışmışıq. Yeni iştirakçıları öz fəaliyyətlərimizə cəlb etmişik və çalışmışıq ki, bu fəaliyyətlər sıxıcı və üzücü olmasın. Çağdaş cəmiyyət sınaq mərhələsindədir. Bizim həyatımız hər saniyədə dəyişir. Bu gün dünyada hər 15 dəqiqədə bir fil ölür, hər saat minlərlə köpək balığı öldürülür. Elə zamana gəlib çata bilərik ki, bütün heyvan növlərinin nəsli kəsilə bilər. Hamınız ətraf mühitin qorunmasında rol oynaya bilərsiniz. Artıq fəaliyyət göstərməyin vaxtı gəlib çatıb. Gələcəyi daha parlaq, daha yaşıl, daha təkmil qurmağa nail olacağıq".

**BMT Sivilizasiyalar Alyansının Ali Nümayəndəsi Nasir Əbdüləziz əl Nasir çıxışında Azərbaycana belə tədbirə ev sahibliyi etdiyinə görə minnətdarlığını bildirib:** "Hər kəsin birlikdə yaşadığı cəmiyyət, qruplaşmalara qarşı bir dünya üçün çalışmaq lazımdır. İcma olaraq əmin olmalıyıq ki, dünyanı dəyişmək üçün gənclərə səlahiyyət verə bilirik. Gənclər tərəfindən öhdəlik nümayiş etdirilməsə, davamlı inkişaf mümkün deyil. Yeganə təcrübə mənbəyi bilikdir. Gənclər hər zaman irəliyə addım atmalıdır".



**Tədbirdə Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov da çıxış edib. O bildirib ki, Azərbaycanda gənclər siyasəti sahəsində ciddi addımlar atılır:** "Bu sahədə Azərbaycanda bir sıra layihələr həyata keçirilib, Gənclər Fondu yaradılıb. Gənclərin üzləşdiyi problemlər, ekstremizm, terrorizm sülh çağırışlarına ziddir. Gənc insanların ölüm xəbərlərini eşidirik. Bu, çox ağrılıdır. Bütün dünyada qadınlara qarşı zorakılıqla mübarizə aparılmalıdır. Azərbaycan da ərazi baxımından zorakılığa məruz qalıb. Tarixi torpaqları işğal altındadır. Lakin biz tolerantlıq dəyərlərini qoruyuruq və irəli aparırıq. Qapımızı dünyaya açırıq. Dünyanın daha yaxşı olmasını istəyirik. Ümid edirik ki, bizim üzləşdiyimiz çətinliklərlə gələcək dünya üzləşməyəcək".

## Nasir Əbdüləziz əl Nasir: "Gənclər tərəfindən öhdəlik nümayiş etdirilməsə, davamlı inkişaf mümkün deyil"

**Report.az-ın məlumatına görə, forum çərçivəsində "Gənclər və sosial İnkluzivlik üzrə qlobal gündəlik: Məşğuliyyət üçün ümumi baxış və imkanlar" mövzusunda müzakirələr zamanı BMT baş katibinin gənclər üzrə nümayəndəsi Əhməd Əlhəndavi Azərbaycanın dövlət nümayəndələrinin qurumun əsas meyarlarını paylaşdığını xüsusi vurğulayıb:** "İnsan haqları, inkişaf, sülh və əmin-amanlıq BMT-nin vacib sütunlarıdır. Biz hər zaman hər bir ölkənin gündəmində bu məsələlərin düşməsinə çalışmalıyıq. Tarixən gənclər təhsillə əlaqəli olan şəxslər kimi qəbul edilir. İnsanlar sülh və əmin-amanlığa töhfə verir. BMT Təhlükəsizlik Şurası ötən il münaqişə zonasında yaşayan 600 milyondan çox gənclə bağlı mühüm qətnamə qəbul etdi. Biz gənclər üçün yeni forumların, müzakirə üçün məkanların təşkilinə çalışırıq. 2015-ci ildə 45 min insan İŞİD-ə qoşulub. Bu bizi narahat edir. Bu forumda formalaşdıracağımız əsas meyarlar mentalitetin dəyişməsinin təzahürü olacaq. Bu isə gələcəyə böyük töhfələr verəcək".

Daha sonra BMT Dünya Assosiasiyaları Federasiyasının dayanıqlı inkişaf üzrə rəsmisi Mari Ulman qurum çərçivəsində aktiv şəkildə qlobal əməkdaşlığın yaradılmasının vacibliyini vurğulayaraq, bu istiqamətdə daha perspektivli uğurlara imza ata bilməyin mümkünlüyünə toxunub.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev Azərbaycan hökumətinin gənclərin formalaşmasına, sülhməramlı iştirakçıların peyda olmasına hər zaman böyük önəm verdiyini xüsusi vurğulayıb. Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini, Bakının artıq qlobal məsələlərin müzakirəsi üçün önəmli platforma olduğunu qeyd edən F.Hacıyev ölkəmizdə bir çox dinlərin nümayəndələrinin birgə sülh və əmin-amanlıq şəraitində yaşamasını mədəniyyətlərarası multikultural dəyərlərə necə böyük dəyər verilməsinin təzahürü kimi dəyərləndirib.

**Forum çərçivəsində Biznes Simpoziumu da keçirilib. Simpoziumda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, inklüziv cəmiyyət bəşəriyyət qarşısında duran əsas çağırışlardan biridir:** "İnklüziv cəmiyyət yoxsul, fiziki və əqli məhdudiyyəti olan insanların və cəmiyyətin digər həssas qrupunun maddi imkanının yaradılması, sosial xidmətlərin göstərilməsi, rifahının artırılmasını nəzərdə tutur. Dünya inklüziv cəmiyyətin inkişaf üçün bir sıra layihələr həyata keçirir".

Qeyd edək ki, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu 27 aprel tarixinə qədər davam edəcək.

❑ **Əli RAİS**

# "Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi Madrid prinsiplərinə əsaslanmalıdır"

**"Mən bura Fransa prezidenti və hökumətinin tapşırığı ilə gəlmişəm və danışıqların yenilənməsi, barışıqla bağlı müraciət gətirmişəm". APA-nın "news.am" saytına istinadən verdiyi xəbərə görə, bunu Fransanın Avropa məsələləri üzrə dövlət naziri Harlem Desir İrəvanda keçirdiyi mətbuat konfransında deyib.**



Harlem Desir

Onun sözlərinə görə, Fransa siyasi rəhbərliyinin çağırışı gərginliyin azaldılması ilə bağlıdır, çünki vəziyyət həddindən artıq gərgindir və partlayış həddinə çatıb: "Müharibə həm hərbi qulluqçular, həm də mülki əhali arasında çoxsaylı itkilərə səbəb olub. Mən elə buna görə buradayam və danışıqlar prosesinin yenilənməsi ilə bağlı mesaj gətirmişəm. 25 mindən çox insanın ölməsi ilə nəticələnən 30 illik münaqişəni dondurulmuş olaraq xarakterizə etmək olmaz. Hər il yeni qurbanlar olur, daha çox insan qaçqın vəziyyətinə düşür".

H.Desir bildirib ki, Fransa digər həmsədr ölkələr kimi münaqişənin yekun həlli ilə bağlı səylərini əsirgəmir. **"Rusiyalı və amerikalı həmsədrlərlə birlikdə Fransa Madrid prinsiplərinin - gücdən istifadə etməmək, ərazi bütövlüyü, xalqların öz müqəddəratını təyin etmək prinsiplərinin reallaşdırılması üçün səylər göstərir. Münaqişənin tənzimlənməsi bu üç prinsipə əsaslanmalıdır"**,- deyə H. Desir qeyd edib.

Dövlət naziri əlavə edib ki, hazırda prioritet olan atəşkəs rejiminin möhkəmləndirilməsi və ona nəzarət mexanizminin tətbiqidir: **"ATƏT-in Minsk Qrupunun həmsədrləri hesab edirlər ki, atəşkəs mexanizminə ciddi şəkildə riayət edilməlidir və ona nəzarət mexanizmi olmalıdır. Bu nəzarət mexanizmi beynəlxalq ictimaiyyətin himayəsi altında həyata keçirilməlidir. Bunu ATƏT müşahidəçiləri, elektron cihazlar və digər vasitələrlə həyata keçirmək olar".**

# Zakir Həsənov MDB Müdafiə Nazirləri Şurasının katibi ilə görüşdü

## Nazir Yuri Daşkini cəbhədəki vəziyyət barədə məlumatlandırıb



Zakir Həsənov

**Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan MDB Müdafiə Nazirləri Şurasının yeni təyin edilmiş katibi general-mayor Yuri Daşkinlə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Z. Həsənov qonağa Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş verən son hadisələr, hazırkı vəziyyət barədə ətraflı məlumat verib.

General-polkovnik Z.Həsənov düşmən tərəfindən yaşayış məntəqələrimizin və mülki əhalinin atəşə məruz qalması faktlarını xüsusi olaraq diqqətə çatdırıb. Beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 ildən artıq erməni işğalı altında olduğunu və bunun nəticəsində bir milyondan çox soydaşımızın didərgin düşdüyünü vurğulayan müdafiə naziri danışıqlar prosesinin nəticəsiz qaldığını deyib.

MDB-nin üzvü olan ölkələrlə hərbi sahədə əlaqələrə toxunan general-polkovnik Z. Həsənov bu əməkdaşlığı daha da inkişaf etdirmək üçün perspektivlərin mövcudluğunu bildirib.

MDB Müdafiə Nazirləri Şurası üzv ölkələrin nazirləri ilə görüşləri çərçivəsində ilk səfərin məhz Azərbaycana olduğundan məmnunluğunu ifadə edən Y.Daşkin Birliyin ölkələri arasında hərbi sahədə münasibətlərin genişləndirilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Z.Həsənov general-mayor Y.Daşkinə MDB Müdafiə Nazirləri Şurasının katibi vəzifəsində və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

# Çovdarovun YAP-çıdan üç milyon almasına üç reaksiya

Baş Prokurorluq Tağı Əhmədovun şantaj olunmasına münasibət bildirdi; "Onun 3 milyonu haradandır ki, Akif Çovdarov da ondan alsın?"; bəs sabiq metropoliten rəisi nə dedi?

**Eldar Mahmudov çetesinin əsas simalarından biri olan Akif Çovdarov Bakı Metropoliteninin keçmiş rəisi Tağı Əhmədovu şantaj edib. İstintaq orqanlarındakı mənbənin moderator-az-a bildirdiyinə görə, T.Əhmədov A.Çovdarovun cinayətkar əməllərindən şikayət edərək bildirib ki, təhdidlər və təzyiqlər qarşısında ona 3 milyon manat verməyə məcbur olub. Gözlənilir ki, yaxın günlərdə Tağı Əhmədov da Akif Çovdarovla üzləşdiriləcək.**

Məlumata görə, T.Əhmədov şikayətində göstərib ki, Çovdarov onu şantaj edib və həbslə hədələyib, habelə bütün yaxın qohumlarına, o cümlədən Nizami Rayon Məhkəməsində hakim işləyən kürəkəninə qarşı repressiv addımlar atacağını bildirib. A.Çovdarov çoxsaylı cinayət əməllərində, o cümlədən qanunsuz azadlıqdan məhrum etmə, hədə-qorxu yolu ilə başqasının əmlakını ələ keçirmə kimi cinayətlərdə ittiham olunur. Onun əməllərindən zərər çəkən sahibkarların bir qismi hüquq-mühafizə orqanlarına şikayət edib və iş üzrə zərərçəkən kimi tanınıblar.

Sayt yazır ki, həbsdəki Baş İdarə rəisi vaxtilə hədə-qorxu ilə əmlakını ələ keçirdiyi şəxslərlə üzləşdirilib. 8 saata yaxın davam edən üzləşmədə iş adamları Akif Çovdarovu bir daha ifşa ediblər. Məlumata əsasən, aprelin 22-də A.Çovdarov Səbayel rayonunun keçmiş icra başçısı Mübariz Məmmədovun qardaşı, Binəqədi bələdiyyəsinin keçmiş sədri, habelə Səbayel Rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin indiki rəhbəri Hafiz Aberkatovla üzləşdirilib. Həmin şəxslərin adı Çovdarov və MTN-dəki mütəşəkkil cinayətkar qruplaşmanın işində zərərçəkən kimi keçir. Çünki Çovdarov onlardan hədə-qorxu və təhdid yolu ilə iri məbləğlərdə pul qoparıb.

"Yeni Müsavat"ın əməkdaşı Akif Çovdarovun qanunsuz əməllərindən zərərçəkənlər sırasında Tağı Əhmədovun olub-olmamasını dəqiqləşdirmək üçün Baş Prokurorluğun mətbuat xidməti ilə əlaqə saxlayıb. Xidmət rəhbəri Eldar Sultanov Tağı Əhmədovun A.Çovdarovun əməllərindən zərərçəkənlər sırasında olmasını təkzib etməyib. Deyib ki, bu məsələni şərh etmirlər. Akif Çovdarovun vəkili Sadiq Rəsulovla da əlaqə saxlanılıb. S.Rəsulov "mən bununla bağlı müsahibə vermirəm" deməklə kifayətlənib.


Tağı Əhmədov


Akif Çovdarov

Ümumilikdə isə Tağı Əhmədovun Akif Çovdarovdan şikayətçi olmasını təkzib etməyib.

Bununla belə, bu xəbər ictimailəşəndən sonra sosial şəbəkələrdə Tağı Əhmədova yönəlik ittihamlar meydana gəlib. Həmin ittihamların əksəriyyəti "Tağı Əhmədovun 3 milyonu haradandır ki, Akif Çovdarov da ondan alsın" şəklindədir. Belə şərhlər yazanlar T.Əhmədovun metropoliten rəisi vəzifəsində çalışarkən əmək haqqının 1000 manat civarında olduğunu qeyd etməklə onu korrupsiyada ittiham etməkdən də çəkinmirlər.

Məsələyə münasibət öyrənmək üçün musavat.com-un əməkdaşı Bakı Metropoliteninin keçmiş rəisi Tağı Əhmədovla əlaqə saxlayıb. Tağı Əhmədov jurnalistin sualını axıra qədər dinləsə də cavab verməkdən imtina edib. O vurğulayıb ki, haqqında yayılan xəbərlərə münasibət bildirmək istəmir.

❑ **E.HÜSEYNOV**

## Qızının Vaşinqtonda "dollar qonaqlığı" verdiyi iddia edilən icra başçısı danışdı

Vaşinqtonda dollar qonaqlığı verən xanım Bakıdakı icra başçısının qızıdır?



**Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov qızının Vaşinqtonda dostlarına "dollar qonaqlığı" verməsi ilə bağlı yayılan məlumatlara münasibət bildirib.**

İcra başçısı musavat.com-a açıqlamasında deyib ki, qızının Vaşinqtona getməsi ilə bağlı xəbər yalan olduğu kimi, orada dostlarına "dollar qonaqlığı" verməsi barədə məlumat da yalandır: "Qızımın ümumvətəndaş pasportu yoxdur. Pasportu olmadığı halda, qızım Vaşinqtona necə gedə bilər? Qızım Göygöldən, Gəncə bölgəsindən kənara çıxmayıb".

**İcra başçısı qızının Gəncədə ali təhsil aldığını və kimya-biologiya fakültəsini bitirdiyini qeyd edib:** "Qızım universiteti bitirdikdən sonra ailə həyatı qurub. 3 övladı var. Və hazırda Göygöldə yaşayır. Göygöldə yaşayan qızımın Amerikada dollar qonaqlığı verdiyini ancaq vicdanını satmış insanlar yaza bilər. Bu cür mətbuat işçilərinə qarşı vicdanlı, ədalətli mətbuat nümayəndələri öz mövqelərini ortaya qoymalıdırlar. Dövlət rəhbəri, cənab prezidentimiz mətbuat işçilərinə şəffaf bir mühit yaradıbsa, bu, o demək deyil ki, mətbuat işçiləri kiminsə haqqını tapdalamalıdırlar, nə istəsə yazmalıdırlar".

A.Məmmədov məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət edə biləcəyini də qeyd edib: "Qızım da tələb qoyur ki, bu məsələ araşdırılsın. Hər kəs yazdığı yalan məlumata görə cavab verməlidir".

Xatırladaq ki, aprelin 24-də mətbuatda icra başçılarından birinin qızının Vaşinqtonda dostlarına ziyafət verdiyi və bu zaman masalardakı qablara dollar düzüldüyü haqda məlumat yayılmışdı. Məlumatlarda həmin xanımın Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının qızı olduğu iddia edilirdi.

**Günün sonunda modern.az saytı belə bir xəbər yaydı:** "Azərbaycanın icra başçılarından birinin Amerika Birləşmiş Ştatlarında (Vaşinqton) yaşayan qızı barədə dünən yaydığımız xəbər sosial şəbəkələrdə xeyli müzakirələrə yol açıb. Modern.az-ın bu xəbərinə ağız büzənlər də az olmayıb. Xatırladaq ki, icra başçısının qızı Vaşinqtondakı dostlarına verdiyi qonaqlıqla hamını heyrətləndirə bilib. Təxminən bir ay öncə yaxın çevrəsini ətrafına toplayan bu xanım onlara "dollar qonaqlığı" verib. Onun təşkil etdiyi məclisə təşrif buyuranların hər birinin boşqabına 100 dollarlıq əsginazlar düzülüb. Bu, həm də Azərbaycanda devalvasiya dövrünə təsadüf edir. Qeyd edək ki, həmin xanımın adı və kimliyi modern.az saytına məlumdur, amma məclisdən çəkilən fotolar hələ əlimizdə olmadığından xəbərdə konkretliyə varmadıq.

Hələlik dəqiqləşdirilmiş məlumat bundan ibarətdir ki, səs-küylü qonaqlığı verən xanım hazırda Bakı rayonlarının birinə rəhbərlik edən icra başçısının qızıdır".

❑ **İlkin MURADOV**

# Azərbaycan siyasətində pul problemi

Əvvəllər siyasi partiyaları maliyyələşdirənlər indi qaçırlar; **Sülhəddin Əkbər:** "Partiya qurmaq üçün ciddi maliyyə qaynağı olmalıdır"

**Son zamanlarda Azərbaycan siyasətində əvvəlki illərdən fərqli olaraq qəribə bir mənzərə yaranıb. Belə ki, siyasi qurumların yaradılması prosesi sanki dayanıb. Proses köhnə qurumlar üzərində cərəyan edir. Təsadüfi deyil ki, ictimaiyyət və mətbuatda daha çox "ənənəvi müxalifət" termini işlənir.**



Buna səbəb də yeni bir siyasi qurumun ortaya çıxmamasıdır. Bu mənzərənin fonunda ortaya çıxan daha bir hal mövcuddur. Müstəqillik illərindən başlayaraq, 2000-ci illərin ortalarına qədər siyasi partiyalar daha çox qazanc mənbəyi məqsədilə yaradılırdı. Belə ki, müxalif təşkilatlar yaranan kimi, ilk növbədə, imkanlı şəxslərin axtarışına start verilirdi, bir növ həmin şəxslər partiyaları maliyyələşdirirdilər. Amma hazırda bunun əksidir. Heç bir biznesmen siyasətə baş qoşmaq, bu yolda maliyyə xərcləməkdən qaçır. Səbəb də çox sadədir. Çünki siyasi proseslər yoxdur. İmkanlı şəxslər müxalifətin perspektivinə inanmırlar. Ardıcıl məğlubiyyətlər onların inamının üstündən xətt çəkib.

Qeyd edək ki, son illərdə müxalif camiədə ortaya çıxan yeganə qurum Azad Demokratlar Partiyasıdır. Müsavatın keçmiş funksioneri, MTN şefinin sabiq birinci müavini Sülhəddin Əkbər tərəfindən yaradılan bu partiya hələ ki qeydiyyatdan keçə bilməyib. Ümumiyyətlə, son zamanlarda Azərbaycanda siyasi qurumların qeydiyyatına ciddi maneələr yaradılır. Bu amilin də ölkəmizdə yeni müxalif təşkilatların meydana çıxmasına əngəl törətdiyini düşünənlər az deyil.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər hesab edir ki, yeni müxalif qurumların ortaya çıxmamasına səbəb Azərbaycanda siyasi proseslərin olmamasıdır:** "İnsanlar siyasətin perspektivini görmürlər. Proporsional sistemin ləğv olunması, siyasi partiyaların seçkilərdən kənarda qalmaları, seçkilərin nəticələrinin ləğv olunması vətəndaşlarda partiyalara, demokratik dəyişikliyə olan inamı öldürüb. Heç bir kəs siyasi partiyaya üzv olmağa həvəs göstərmir. İnsanlar daim o işə girirlər ki, orada perspektiv, gələcək həyatlarını qurmaq imkanları görürlər. Azərbaycanda bu yoxdur. İlk səbəb budur. Ölkəmizdəki hakimiyyət çoxpartiyalılıq sistemini ortadan qaldırıb. Formal olaraq, çoxpartiyalı sistem var, faktiki isə təkpartiyalı sistem görürük. Xüsusilə 2010-cu ilin parlament seçkilərindən sonra bu hal öz təsdiqini tapdı. Səbəblərdən birincisi budur. İkinci səbəb də hakimiyyətlə bağlıdır. Belə ki, yeni partiyaların yaradılmasına iqtidar imkan vermir. Artıq heç bir partiya hakimiyyətin razılığı olmadan qeydə alınmır. Fəaliyyət üçün normal şərait yoxdur. Təşkilatlar maliyyə qaynaqlarından məhrum edilib. Elə bir vəziyyətdir ki, insanlar artıq könüllü şəkildə partiyalara gəlmirlər, öz hesablarına fəaliyyət göstərmirlər. Normal partiya qurmaq üçün ciddi maliyyə qaynağı olmalıdır. Bu da iş adamları ilə mümkündür. Siyasi və iqtisadi azadlıqlar olmadığına görə biznes dairələri partiyaları maliyyələşdirməkdən çəkinirlər. Çünki siyasi qurumların perspektivlərini görmürlər. Hazırda heç bir iş adamı buna maraq göstərmir. Əsas səbəblər bunlardır".

**S.Əkbər yaratdıqları partiyanın qeydə alınmaması ilə bağlı Avropa İnsan Haqları Məhkəməsinə şikayət hazırladıqlarını da qeyd etdi:** "Azərbaycan jurnalistikasında "ənənəvi müxalifət" termini var. Hakimiyyət bu müxalifəti sıradan çıxardığını düşünür və istəmir ki, yeni siyasi qüvvə ortaya çıxsın. Çünki yeni siyasi canlanma başlaya bilər. Buna görə heç bir yeni qurumun qeydə alınmasına imkan vermir. Son illərdə yaranan yeganə qurum bizim partiyadır. 2014-cü ilin 6 iyulunda yaranıb. Bu günə qədər qeydə alınmayıblar. Ali Məhkəmədə iki işimiz var idi. Amma bu instansiya şikayətlərimizi rədd etdi. Artıq Avropa İnsan Haqları Məhkəməsinə müraciət etməyə hazırlaşırıq. Çünki Azərbaycandakı bütün instansiyaları keçmişik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

**"Azərbaycan Naminə" İctimai Forumun prezidenti, politoloq Eldar Namazov iki il sürən müalicə kursunun ardından aprelin 22-də "Yeni Müsavat"ın redaksiyasında olub və geniş müsahibə verib. Eldar Namazovla müsahibənin sonuncu hissəsini təqdim edirik.**



# "Hamı başa düşür ki, ordu rəhbərliyi daha böyük əməliyyat planı üzərində işləyir"

## **Eldar Namazov:** "İstisna deyil ki, Ermənistan ağlını başına yığmasa, ikinci və daha ağır dərs almalı olacaq"

*(əvvəli ötən sayımızda)*

***- Bu dəfə Rusiya faktoru hansı məsafəyə qədər bizim əleyhimizə işləyə bilər?***

- Əslinə qalsa, artıq Rusiyanın Qarabağ məsələsində bir addım geri çəkilmək imkanları var. Təsir imkanlarını itirmədən bunu edə bilər. Mərhələli həll planı işə salınsa, Rusiya iddiaçı olacaq ki, sülhməramlı qüvvələr onların hərbi qüvvələri olsun. Məsələn, Laçın dəhlizinə nəzarət edən sülhməramlı qüvvələrin gələcəkdə təsir imkanları böyük olacaq. Ona görə də Moskva çalışacaq ki, sülhməramlı qüvvələr kimi məhz özünün hərbi qüvvələri bölgəyə yerləşdirilsin. Azərbaycan diplomatiyası hər şeyi düzgün ölçüb-biçməlidir ki, hansı irəliləyişin əvəzində bizdən nə istəyirlər və buna getmək olarmı.

***- Qərb, ABŞ, Avropa Birliyi bu məsələdə kimin yanındadır?***

- Son hərbi əməliyyatlardan sonra Azərbaycanla Ermənistan sanki dünya ictimaiyyətinin gözünün qabağında yerlərini dəyişdilər. Əvvəllər biz deyirdik ki, Azərbaycan torpaqları işğal altındadır, buna niyə reaksiya vermirsiniz. İndi Azərbaycan ordusu uğurlu əməliyyat keçirib və ermənilər hər yana şikayət edirlər ki, niyə reaksiya vermirsiniz. Dünya da faktiki olaraq deyir ki, Azərbaycan əraziləri işğal altındadır və işğal altında saxlanan torpaqlar geriyə qaytarılmalıdır. 22 ildir saxlanan status-kvonu artıq saxlamaq mümkün deyil. Avropa Birliyinin xarici siyasət üzrə komissarı Federika Moqerini son hadisələrlə bağlı çıxışına onunla başladı ki, mən dəfələrlə bəyan etmişəm, status-kvonu saxlamaq mümkün deyil. Bu, ermənilərə bir mesajdır ki, 22 ildir Azərbaycanın torpaqlarından geri çəkilmirsiniz indi Azərbaycan öz ərazilərini geri qaytarmaq hüququndan istifadə edir. Yəni dünya gücü tanıyır. Təəssüflər olsun ki, dünyada ikili standartlarla yanaşma hər yanda var. Son dörd ildə Ukrayna hadisələrini gördük, Suriyada baş verənlərə münasibəti gördük. Dünyada güc amili təəssüflər olsun ki, getdikcə daha böyük rol oynayır. Azərbaycan ordusunun da Cənubi Qafqazda ən güclü ordu olduğunu sübut eləməsi gələcəkdə Azərbaycan diplomatiyası üçün xeyli imkanlar açır. Ancaq bunu yaxşı istifadə etmək lazımdır.

***- Sizcə, proseslərin bundan sonrakı gedişində ordu faktorundan daha bir dəfə istifadə eləmək ehtiyacı olacaqmı, yoxsa artıq yetərlimi diplomatik danışıqlarda nəticələrə nail olmaq üçün?***

- Bunu dəqiq söyləmək çətindir. Mən hərbi sirrə malik deyiləm, indiki dövrdə Azərbaycanın Müdafiə Nazirliyində nələr baş verdiyindən xəbərim yoxdur. Ancaq dərin analitik olmağa da ehtiyac yoxdur. Hamı başa düşür ki, hazırda ordu rəhbərliyi daha geniş əməliyyat planına uyğun, kəşfiyyat döyüşündə əldə edilən nəticələrin əsasında daha böyük əməliyyat planının üzərində işləyir. Bu, nə ermənilər üçün, nə Rusiya üçün, nə ABŞ üçün, nə Avropa üçün sirr deyil. Bunu hər bir ordu eləməlidir və Azərbaycan ordusu da edir. Gələcək danışıqlarda da ümid edirəm bu amil çox vacib rol oynayacaq. Ancaq heç də istisna deyil ki, Ermənistan ağlını başına yığmasa, ikinci və daha ağır dərs almalı olacaq.

## "Azərbaycanda güclü islahatlar aparılması üçün üç amilin olması vacibdir"

***- Belə bir vəziyyətdə Azərbaycanın əsas maddi qaynağı olan neftin qiymətinin düşməsi ölkənin hərbi qüdrətinə hansı dərəcədə təsir göstərə bilər? Yoxsa təhlükə yoxdur, Azərbaycan büdcə məsələsini yaxın bir müddət üçün təmin edib? Ümumiyyətlə, Azərbaycanda neftin qiymətinin düşməsi ilə başlanan və dünyada gedən iqtisadi böhranın ölkəmizə də yansımasına münasibətiniz necədir? Ölkəmiz bundan necə yayına bilərdi, yaxud bundan sonra yayına bilərmi?***

- Neftin qiymətinin düşəcəyi və neft erasının başa çatacağı ilə bağlı hələ 10 il bundan əvvəl bizim ekspertlərlə hazırladığımız "Gələcək 10 il" iki cildlik kitabda geniş yazılıb. Bakı-Tiflis-Ceyhan kəməri istifadəyə veriləndən sonra 2006-cı ildən Azərbaycana neft pulları axını başladı. O dövrdə artıq bəlli idi ki, bu, Azərbaycan üçün böyük bir sınaqdır. Həmin pullardan səmərəli istifadə edib Azərbaycanın yeni bir iqtisadi modelini qurmaq olardı. Deyilirdi ki, bunu etməsə, Azərbaycan bir müddətdən sonra ağır iqtisadi durumla rastlaşa bilər. Biz adını çəkdiyim və indi sizin kitabxananıza təqdim etdiyim kitabda da yazmışdıq ki, qarşıdakı 10 il Azərbaycan üçün çox kritik əhəmiyyət kəsb edir. Bu 10 il ərzində Azərbaycana böyük neft pulları gələcək və onlardan biz nə cür istifadə edəcəyimizdən çox şey asılı olacaq. 10 il keçdi və təəssüflər olsun ki, daha çox mənfi proqnozlar doğruldu. Təəssüflər olsun ki, gözlənilən mənfi proqnozlar reallaşdı və Azərbaycan büdcəsi bu il 25 faiz azalmaya məruz qaldı. İndi müəyyən addımlar atılır, islahatların keçirilməsi ilə bağlı müəyyən təyinatlar oldu. Amma mən hesab edirəm ki, bunlar hələ kifayət eləmir. Azərbaycanda güclü islahatlar aparılması üçün üç



## "Artıq neft erası bitmək üzrədir"

amilin olması vacibdir. Siyasi iradə olmalıdır, islahatların bir konsepsiyası olmalıdır və onu həyata keçirə biləcək komanda olmalıdır. Əvvəllər bu siyasi iradə hiss olunmurdu, lakin neftin qiymətinin kəskin aşağı düşməsi və yaranan problemlər, hər halda, bu iradəni bir qədər ortalığa gətirdi. Ancaq o proqramı həyata keçirə biləcək kadr potensialı, komanda formalaşdırmaq baxımından yetərli addımlar atılmayıb. Mənə belə gəlir ki, velosiped icad etməyə ehtiyac yoxdur. Beynəlxalq təcrübədən istifadə etmək lazımdır. Bu yolu artıq keçmiş ölkələr var, onların uğurlu islahatlar paketini həyata keçirən ekspertlər var. Əgər Azərbaycanın müstəqil ekspertlərlə hakimiyyətin əməkdaşlığına imkan verməyən hansısa siyasi konyuktur məsələlər varsa, onda heç olmasa Şərqi Avropada gözəl islahatlar həyata keçirən mərkəzlər ki, var, onlardan istifadə etmək lazımdır. İndi prezidentin sərəncamı ilə İslahatlar Mərkəzi yaradılıb. Orada çalışmaq üçün Azərbaycan vətəndaşı olmaq tələbi yoxdur. Xaricdən ekspertləri oraya cəlb etmək olar. Neftin indiki qiymətləri, əslinə qalsa, müsbət bir münbit yaradır. Bir tərəfdən hazırkı qiymət o qədər aşağı qiymət deyil ki, Azərbaycan iqtisadiyyatı çöksün, ancaq eyni zamanda o qədər yüksək də deyil ki, buna arxayın olub islahatlar həyata keçirilməsin. İslahatları neftin qiyməti 100 dollar olanda keçirmək lazım idi. Təəssüf ki, o islahatlar vaxtında keçirilmədi. Ancaq heç olmasa neftin qiyməti 40-50 dollar arasında olanda islahatları keçirmək lazımdır; çünki sabah nə olacağını proqnozlaşdırmaq çətindir. Artıq neft erası bitmək üzrədir. Neftin qiymətinin bundan sonra 80-100 dollara qalxması ehtimalı çox aşağıdır. Ancaq neftin qiymətinin 30 dollardan aşağı düşmək ehtimalının yüksək olduğu haqda bütün ekspertlər danışırlar. Ona görə vaxt itirmədən islahatları keçirmək lazımdır.

***- Eldar bəy, siyasi fəaliyyətə döndünüzmü? Siyasi fəaliyyət bərpa olunacaqmı, olunacaqsa, hansı şəkildə? Bu barədə nə planlarınız var?***

- Mən həkimlərin də səhhətimlə bağlı məsləhətlərinə uyğun fəaliyyətimi mərhələ-mərhələ bərpa edirəm. Yaxın gələcəkdə proseslərlə bağlı mətbuatda daha çox görünəcəyəm. Bizim rəhmətlik Zəfər Quliyevlə bir neçə layihələrimiz var idi. O dövrdə mənim müalicəmin pik nöqtəsi idi. Ona görə də biz qərara gəlmişdik ki, Analitik Mərkəz yaradılmasına Zəfər Quliyev rəhbərlik edəcək. Hətta mərkəzin tərkibini yığıb ilkin söhbət də eləmişdik. Təəssüf ki, Zəfər müəllimi qəfil itirdik və planımız həyata keçməmiş qaldı. Mən indi həmin planların bir qismini həyata keçirmək fikrindəyəm. Hesab edirəm ki, indiki dövrdə Qarabağla bağlı proses Azərbaycan üçün taleyüklü və həll edici bir məqamdır. İkincisi, neftin qiymətinin aşağı düşməsi ilə bağlı yaranmış durum təxirəsalınmaz islahatların aparılmasını zəruri edir. Bu sahələrdə mütəxəssislərlə müəyyən işlər görəcəyik. Bu haqda da mətbuata məlumatlar verəcəyik. Sonrakı fəaliyyəti genişləndirmə mərhələsində isə başqa məsələlər ətrafında söhbət edərik.

***- Bu yaxınlarda Rüstəm İbrahimbəyov qardaşı Maqsud İbrahimbəyovun vəfatı ilə bağlı Azərbaycana gəldi. Siz onunla görüşdünüzmü, təmas qurdunuzmu, yanında oldunuzmu? Çünki siz bir neçə il öncəyə qədər onunla çox yaxın idiniz, o, siyasətdə ən öncül fiqur kimi Sizi gördüyünü bəyan edirdi. Amma sonra sanki ara soyudu. Bilmək istərdik, son gəlişində kontakt oldumu, münasibətlər bərpa istiqamətində inkişaf etdimi?***

- Mən müalicəyə başlayanda və fəaliyyətimi məhdudlaşdırmalı olanda Rüstəm müəllimə də müraciət eləmişdim. Ən birinci ona xəbər vermişdim. Xahiş elədim nəzərə alsın ki, mən əvvəlki kimi işləri davam etdirə bilməyəcəyəm. Maqsud İbrahimbəyova Allah rəhmət eləsin. Rüstəm müəllim onun vəfatı ilə bağlı Bakıya dönəndə mən Rüstəm müəllimə zəng etdim və başsağlığı verdim. Yas mərasimi günü dostumuz, politoloq Leyla Əliyevanın rəhmətlik anası Gülruh xanımın 40 mərasimi idi. Mən həmin gün də Rüstəm müəllimə zəng edib başsağlığı verdim və Gülruh xanımın yas mərasiminə qatıldım. Ona görə ki, Leyla xanım xaricdə yaşayır və 40 mərasiminə qatılmaq imkanından məhrum idi. Yas mərasiminin keçirilməsində birbaşa yaxından iştirak bir dost kim mənim borcum idi...

❑ **Hazırladı: Etibar SEYİDAĞA**



# Ona aydın olan dildə

Zamin HACI
zaminhaci@gmail.com

**Başımız vətəni sevməyə qarışıb, bu arada vətəndə başqa maraqlı işlər də olmuşdur. Misal üçün, qəzetlər yazır ki, metronun keçmiş müdiri Tağı müəllim keçmiş MTN-in generallarından Çovdarov yoldaşa 3 milyon dollar ödəyibmiş. Kefindən yox, təbii ki. Çovdarov Tağı müəllimi özünün yeraltı cəhənnəmi ilə tanış edəndən sonra metro şefi başa düşüb ki, bura pik vaxtların "28 May" stansiyası deyil, burdan salamat qurtuluş yoxdur, burcuda-burcuda pulu aparıb veribdir. Ancaq sonradan Çovdarov tutulanda bunun da dili açılıb, deyir, pulumu verin. Rəhmətliyin oğlu, camaat heç metro turniketinin yediyi 20 qəpiyi geri ala bilmir, kimdir sənə 3 milyon qaytaran?**

Milyon demişkən, bir polis əməkdaşı haqda da xəbər yayıldı ki, bankda 1 milyon 200 min dolları batıbdır. Başqa bir icra hakiminin qızı Amerikada dollar qonaqlığı veribmiş. Kasıb adamsınız, belə şeyləri bilməzsiniz. *(Guya mən özüm dünənə qədər bilirdim).* Camaatı qonaq çağırırsan, hərəsinin boşqabına da qabaqcadan 100 dollar qoyursan, bunun da adı olurmuş "dollar qonaqlığı". Bu varlılardan nə desən çıxar. Hərə bir cür əylənir. Əsas odur vətən sağ olsun!

Vətənimiz isə çox güclüdür, şübhə edənin ağzı əyilər. ABŞ-ı hamı hegemon dövlət sayır, ancaq biz keçən həftə Amerikanın ölkəmizdəki səfiri Sekuta müəllimə Nardaran çimərliyində plastik butulka, selofan kulok, siqaret kötüyü, keçən mövsümdən qalma qarpız qabığı, qarğıdalı cecəyi, uşaq pampersi kimi əşyaları toplatdırdıq. Getmək istəmirdi, məcbur oldu. Elə dünən guya ABŞ-ın gücünü göstərmək üçün səfirliyin avtomobili Bakı küçələrində avtoşluq edibdir. Ay-hay... Xox, qorxduq. Bu hərəkət zibil toplatdırmağın cavabı ola bilməz.

Qayıdaq yaddan çıxan, gözdən yayınan mövzulara. Hamımız Lələtəpəyə yığışan günlərdə Bakını bir erməni ailəsi səssiz-səmirsiz tərk elədi. Bu, arvad-uşağı ilə Azərbaycanımıza pənah gətirmiş Vahan Martirosyan adlı QHT rəhbəri idi. Diqqətli oxucuların yadında olar, keçən il sentyabrda bu erməninі yapistlər bəh-bəhlə Gürcüstandan Bakıya gətirmişdilər, deyirdilər ona sığınacaq vermişik, mən də bu münasibətlə "Kirvə, xoş gəlmisən" adlı cızmaqara eləmişdim. Ermənilər deyirdilər Martirosyan hansısa cinayət törədib, o üzdən aradan çıxıbdır. İndi isə məlum olur Azərbaycan Martirosyan ailəsini öz arzularına uyğun olaraq 3-cü ölkəyə təhvil verib. Bəs nə oldu? Demək, Martirosyan Ermənistanda yaşaya bilmədiyi kimi, burda da yaşaya bilmədi? İndi bizim yapistlərin kirvəsi kim olacaq? Növbəti qonaqpərvərliyimizi, analoqu olmayan uğurlarımızı hansı yetimin vasitəsiylə təbliğ edəcəyik? Təzə erməni tapmamış, köhnəni niyə buraxdınız? Martirosyanın üzərində nə qədər QHT layihəsi, qəzet yazısı vermək olardı... Vah-vah... Heyf oldu getdi hamısı.

Deputatxana da boş durmayıb, bu arada polis haqda qanuna dəyişiklik hazırlamışdır. İndən belə Azərbaycan polisi hansısa bədbəxti tutub dama salmaq istəsə ona Hollivud kinolarında-zadda gördüyümüz şəkildə - hüquqlarını izah etməli, saxlama səbəblərini, cibinə nə üçün nəşə atıldığını, üzünə adam qoyulmasının mənasını aydın deməlidir. Sitat: "Maddənin 3-cü hissəsinə edilən dəyişikliyə əsasən, saxlanmadan dərhal sonra polis həmin şəxsə, sadəcə, saxlanmasının əsaslarını yox, səbəbini, şübhənin mahiyyətini bildirməli olacaq. Maddənin bu bəndinə edilən əlavəyə görə isə polis saxlanılan şəxsə hüquqlarını "ona aydın olan dildə" izah etməlidir" (APA). Yazıq polis... Lap artist olub gedəcəklər.

Gördüyünüz kimi, burada əsas vurğu "ona aydın olan dildə" ifadəsindədir. Yoxsa bəzi müxalifətçilər, jurnalistlər olurdu, tutub dama salırdılar, 3-4 il yatıb Amerika səfiri bir kulok zibil toplayandan sonra əfvə salınıb buraxılırdı, hətta o halda da görürdün mızıldanırlar: "Məni niyə tutmuşdular, məlum deyil, çünki günahsızam".

Elə olmur axı, qardaşım. Günahın olmasa heç Azərbaycanda dünyaya gəlməzdin, demək, bir günahın olub ki, tutublar. Sadəcə, tutulan anda polis dəqiqliklə adama izaha eləsə ki, bax, Mamed, səni keçən həftə facebookda ağzına gələni yazdığın üçün tuturuq, ya da nə bilim, Qənimət Zahidin qohumusan, ona görə əlli-ayaqlı gedirsən - adam da razı qalar, çıxanda o cür intervülər verməz.

# Aprel savaşı diplomatiya müstəvisinə keçir



## Putinin müşaviri İrəvandakı Qarabağ danışıqlarının sensasion detallarını açdı

### "Ermənilər 5 rayonu qaytarmağa hazırdır, ancaq..."; Moskva Sərkisyandan həm güzəşt gözləyir, həm də onun hakimiyyəti üçün əndişəlidir?; erməni analitik: "Dağlıq Qarabağın müstəqilliyi heç kimə lazım deyil..."

**Qarabağ konflikti ətrafında 4 günlük savaşdan sonra yaranmış yeni situasiyada qeyri-müəyyənlik davam eləsə də, yeni maraqlı gəlişmələr var. Xüsusən də Rusiya xarici işlər naziri Sergey Lavrovun son İrəvan səfəri hələ də ciddi müzakirə predmetidir.**

Nazirin həmin səfər zamanı söylədiyi, ilk baxışda xeyrimizə olmayan bəzi neqativ açıqlamalarına rəğmən, belə görünür, Ermənistan rəhbərliyi ilə Qarabağ mövzusunda müzakirələr həqiqətən gərgin keçib. İlkin qənaət ondan ibarətdir ki, işğalçı Ermənistan və onun əsas müttəfiqi Rusiya işğal altındakı ərazilərimizin ən azı, bir hissəsinin qaytarılmasının vaxtı çatdığını artıq anlayır, bunun gecikdirilməsinin bölgədə böyük bir savaşa gətirəcəyinin fərqindədir.

O da aydın olur ki, erməni tərəfinin "status *(Dağlıq Qarabağın tanınması -red.)* qarşılığında ərazilər" israrı daha məqbul sayılmır və gündəlikdən çıxmış hesab oluna bilər. Ona görə ki, problemin həlli üçün paket yox, mərhələli model ətrafında müzakirələrin getdiyi daha çox ehtimal edilir. Bu isə İrəvanı narahat edir. Ermənilər təlaşdadır ki, işğal altındakı bir neçə rayon qaytarıldıqdan sonra Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə əlavə təhdidlər yaranacaq, çünki onların fikrincə, "Azərbaycana etibar yoxdur". Ermənistanın indiki rəhbərliyinin daha bir əndişəsi ərazi güzəştindən sonra Sərkisyan rejiminin siyasi ömrünün başa çatacağı ilə bağlıdır.

****

Bu arada Rusiya İctimai Palatasının üzvü, Siyasi Tədqiqatlar İnstitutunun direktoru və prezident Vladimir Putinin etibarlı şəxslərindən sayılan **Serqey Markov** Moskva-Bakı portalına müsahibəsində Sergey Lavrovun İrəvan səfərinin sensasion detallarından danışıb (virtualaz.org). Politoloq bildirib ki, nazirin səfəri çərçivəsində müzakirə mövzularında biri Serj Sərkisyana və ölkə əhalisinə Rusiyanın Qarabağ məsələsinin həllinə dair planının həyata keçirilməsi vacibliyini izah etməkdə köməklik göstərmək olub. Belə ki, Ermənistanda "Kazan sənədi"nə qarşı kifayət qədər kəskin reaksiya müşahidə olunmaqdadır.

"Mən faktiki əminəm ki, "Kazan sənədi" və onun müxtəlif variantları tətbiq edilir. Sənəd əvvəl qəbul olunmadı... Daha doğrusu, onun qüvvəyə minməsi, imzalanması üçün formulu dəyişmə qaydası müzakirə predmetinə çevrildi. Görünür, danışıqlarda əsas məqam da məhz bu olub", - deyə Putinin müşaviri qeyd edib.

## "Sərkisyan sənədi imzalasa belə, onu devirsələr, plan yekunda icra olunmayacaq"

**Onun sözlərinə görə, Ermənistanda əksəriyyət bu planı ciddi güzəşt hesab edir və hətta Sərkisyanı Rusiya rəhbərliyinin istəklərinə zidd olaraq, devirməklə təhdid edirlər. "Sərkisyan sənədi imzalasa belə, onu devirsələr, plan yekunda icra olunmayacaq" - Markov vurğulayıb. O, eyni zamanda müzakirə oluna biləcək bəzi digər detallar barədə də məlumat verib.**

"**Birincisi,** bu, Azərbaycana qaytarılacaq rayonların sayı ilə bağlıdır. Plana əsasən, 6 rayon və Laçın rayonunun bir hissəsi qaytarılır, ölkəni Dağlıq Qarabağla əlaqələndirən Laçın dəhlizi isə işğal altında qalır. **İkincisi** - Dağlıq Qarabağla bağlı referendum sənədinə girişdə nələrin salınmasıdır. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələri və Madrid prinsiplərindən çıxış edir. Bu isə öz növbəsində Ermənistan tərəfini qane etmir. Çünki həmin qətnamələrdə qeyd olunur ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Dağlıq Qarabağ Azərbaycana məxsus olduğu halda isə referendum keçirmək mümkünsüzdür. Azərbaycan qətnamələrdə göstərilənlərə zidd referendumun keçirilməsini istisna edir. Üçüncüsü isə qaçqınlar, onların səsvermə hüququ və köçürülməsidir. Məlum məsələdir ki, bu gün yalnız ermənilərin məskunlaşdığı Dağlıq Qarabağda referendum keçirilərsə, əhali müstəqilliyə səs verəcək, çünki orada heç bir qaçqın yoxdur. Deməli, qaçqınlar məsələsi, yəni onların səs verə bilməsi və ümumiyyətlə, kimin qaçqın hesab olunması kimi məsələlər həll yolunu tapmalıdır" - politoloq əlavə edib.

***

**Yeni situasiya fonunda Lavrovun son İrəvan ziyarəti və erməni tərəfinin Qarabağ məsələsində maksimalist tələbləri, o sırada separatçı rejimin müstəqilliyi iddiaları ilə bağlı Ermənistanda da qızğın müzakirələr gedir. Və belə görünür, erməni cəmiyyətinin müəyyən hissəsində, xüsusən də ekspert ictimaiyyətində artıq bu tələbin utopiya olması dərk edilməyə başlayıb. Tanınmış erməni analitiki İqor Muradyanın "Qarabağın müstəqilliyi kimə lazımdır?" məqaləsi xüsusilə diqqət çəkir.**

"Erməni cəmiyyəti üç siyasi rejim yaşayıb, ancaq onların heç biri Qarabağ əyalətinin müstəqilliyini tanımayıb. Təkcə siyasi rejimlər deyil, erməni toplumu da buna olduqca laqeyd yanaşıb. Cəmiyyət bu tanınmaya hazırdımı?" - yazır politoloq.

**Muradyan ardınca deyib:** "Qarabağ əhalisi uzun müddət anabioz vəziyyətdə olub və müstəqillik əldə olunması üçün heç nə etməyib. Üstəlik, Minsk Qrupunun təsir dairəsində ola-ola - hansı ki, açıqca müstəqilliyi istisna edir - yenə suverenlikdən necə danışmaqda davam eləmək olar? İki il öncə Stepanakertdə (Xankəndi-red.) Krımın Rusiyaya birləşdirilməsi ilə bağlı Rusiyaya dəstək aksiyası keçirildi. Bu ciddi bir hadisə idi və amerikalılar ondan sarsıldılar. Qarabağ sakinləri hələ uzun müddət bunun altını çəkəcək, bədəlini ödəyəcəklər. Bədəl sərt olacaq və bu, ona baha başa gələcək. Qarabağ əhalisi rusların aciz qulu olmaqla axmaq bir vəziyyətə özünü salıb".

**Erməni analitik yazısını belə bitirir:** "Mən artıq bir dəfə demişəm: Putinin müşaviri İrəvanı xəbərdar edib ki, Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanımağa cəhd eləsə, bu, onun üçün fəlakətlə nəticələnəcək. Ermənistanın "tərəfdaşı" niyə bunu deyir? Ona görə ki, Güney Qafqazda Amerika təsiri olmamalıdır. Yalnız Rusiya. Hansı müstəqillikdən danışmaq olar əgər Qarabağ və Ermənistan Rusiyanın vassalı olaraq qalırsa?"

## "Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan isə parlamentin dünənki iclasında 4 günlük aprel savaşında erməni ordusunun çoxsaylı itkilərinə görə müdafiə nazirini və baş qərargah rəisini parlamentə çağırıb izahat istəməyi tələb edib"

**Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan isə parlamentin dünənki iclasında 4 günlük aprel savaşında erməni ordusunun çoxsaylı itkilərinə görə müdafiə nazirini və baş qərargah rəisini parlamentə çağırıb izahat istəməyi tələb edib. O, erməni ordusunun itkilərinin heç də Rusiyanın Azərbaycana satdığı silahlara görə olmadığını deyib.**

"Bizim ona görə bu qədər itkimiz var ki, əsgərimiz axşam saat 8-dən sonra heç nə görmür, çünki gecəgörmə cihazları yoxdur. Bizim ona görə bu qədər itkimiz var ki, orduda adi rabitə vasitələri çatışmır, əsgərlər bir-biri ilə mobil telefonla əlaqə saxlayır və nəticədə hədəfə çevrilir. Əsgərlər hələ də 25 il əvvəlki köhnə rabitə vasitələrini istifadə edir", - keçmiş baş nazir bildirib. Baqratyan Ermənistan Müdafiə Nazirliyinin rəhbərliyinin fəaliyyətini yarıtmaz adlandırıb. Onun sözlərinə görə, orduya ayrılan vəsaitlərin nə dərəcədə effektiv xərcləndiyini aydınlaşdırmaq üçün müdafiə naziri hesabat verməlidir.

***

Bu kimi fikirlər sözsüz ki, işğalçı Ermənistana Qarabağla bağlı hökm sürən bədbin ovqatın, məyusluğun, ruh düşkünlüyünün təzahürüdür. Azərbaycan ordusu hələ cəmi 1-2 yüksəkliyi azad edib, 1-2 rayonu işğaldan təmizləsə, ermənilər nəinki müstəqillik xülyasını birdəfəlik unudacaq, 1992-ci ilin yayındakı kimi, mədəni muxtariyyət xahiş edəcəklər. Bir şey aydındır ki, Qarabağ prosesinə indi təkcə Rusiya yox, 22 ildən sonra artıq Azərbaycan ordusu da qarışıb. Erməniləri ən çox təlaşlandıran da budur.

❑ **Analitik xidmət**

# Qarabağ ətrafında yeni təhlükəli situasiya

**Aprelin 5-də Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri atəşkəs haqqında razılaşma əldə etsələr də, sonrakı günlərdə işğalçı ölkənin davranışları birmənalı olaraq razılaşmanı pozmağa yönəlib. Ermənistan prezidenti Serj Sərkisyanın beynəlxalq qanunları növbəti dəfə pozaraq ilhaq olunan Azərbaycan ərazilərinə gəlməsi, burada öz tabeliyində olan terrorçu və cinayətkar dəstələrin üzvləri ilə görüşüb onları mükafatlandırması əslində İrəvanın heç olmasa 2-4 aprel döyüşlərində aldığı zərbələrdən sonra konstruktiv mövqedən çıxış edəcəyini sual altına almışdı.**




# Sərkisyan danışıqlardan imtina etdi - müharibə qapıda...

## Ermənistan prezidenti "Bloomberg"ə müsahibəsində Qarabağ danışıqlarını lüzumsuz sayıb; düşmənin təmas xəttindəki təxribatları da Azərbaycanı yeni müharibə məcburiyyətində qoyur; Kreml isə vəziyyəti "kövrək" hesab edir; ekspertlər cəbhədəki və danışıqlar ətrafındakı son durumu dəyərləndirdi...

Sonrakı müşahidələr bunu bir daha təsdiqlədi. Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərdən Azərbaycanın Tərtər rayonunun sakinlərini, mülki əhaliyə məxsus evləri mərmilərlə hədəfə alması, paralel olaraq Qarabağ separatçılarının başçısı Bako Saakyanın Hadrut, daha sonra Xocavənd rayonuna gəlib burada toplantılar keçirməsi, cinayətkar dəstələrə təlimatlar verməsi də düşmənin aqressiyasının davam edəcəyinə şübhə yeri qoymur.

Bu arada Ermənistan mühəndis qoşunlarının rəisi, general-mayor İşxan Matevosyan iddia edib ki, uzun müddət gizli saxladığı hərbi sirri açır. O, "İsgəndər" raketlərinin ölkə ərazisində olduğunu deyib. Modern.az xəbər verir ki, bu barədə general Kentron telekanalındakı "Güzgü qabağında" verilişində deyib. Erməni hərbi eksperti Qevorq Arakelyan isə xəbəri təsdiqləyərək bununla bağlı fikirlərini bölüşüb. Azərbaycan Müdafiə Nazirliyi hələlik düşmənin iddialarına cavab verməyib. Ancaq nazirlik dəfələrlə bəyan edib ki, düşmənin istənilən atəş nöqtəsini susdurmaq imkanındadır.

**İstənilən halda "nə hərb, nə sülh" vəziyyətinin uzun müddət davam etməyəcəyini nəzərə alan ekspertlər genişmiqyaslı hərbi əməliyyatların hər an bərpa oluna biləcəyi barədə xəbərdarlıqlar edirlər. Rusiyalı ekspert Oleq Kuznetsov bildirib ki, əgər yaxın müddətdə sülh əldə olunmasa, savaş yenidən başlayacaq. Politoloq hətta yeni savaşın tarixini də açıqlayıb:** "Mayın 8-i yaxınlaşır. Vacib deyil, atəşi birinci kim açacaq. Bu, Azərbaycan ordusunun yeni lokal hücum əməliyyatına başlaması üçün ən əlverişli gündür. Nədən ki, Rusiyanın buna qarışmayacağına yüz faiz zəmanət var. Ən azı üç gün - mayın 7-dən 9-dək Qələbə Günü ilə bağlı bu zəmanət olacaq və Azərbaycan bu 3 gündə nə istəsə, onu öz ərazisində eləməyə ixtiyar sahibidir. Sonra isə Kreml növbəti "sakitləşdirmə" mərhələsinə başlayacaq".

Azərbaycanın milli qəhrəmanları, Qarabağ Azadlıq Təşkilatı, ayrı-ayrı keçmiş döyüşçülər, hətta xaricdə yaşayan bəzi həmvətənlərimiz də Ali Baş Komandandan Vətən müharibəsinə başlamaqla bağlı əmr verməsini xahiş ediblər. Üstəlik, Rusiyanın baş diplomatı danışıqlara başlamaq üçün uyğun vaxtın olmadığını deyib. Deməli, Ermənistan qeyri-müəyyənliyin davam etməsi şəraitində Azərbaycana zərbələr endirməyə, bununla da danışıqlar masası ətrafında üstün mövqe qazanmağa çalışacaq. Azərbaycan isə heç vaxt işğalçının itirdiyi əraziləri geri almasına imkan verə bilməz, bu, təkcə danışıqlardakı üstünlük deyil, həm də qürur məsələsidir.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, Rusiyaya xarici işlər nazirinin Ermənistana səfəri ərəfəsində verilən proqnozlar öz təsdiqini tapmaqdadır:** "Bir daha məlum oldu ki, münaqişənin həlli ilə bağlı Rusiya tərəfdə heç bir konkret fikir yoxdur və müəyyən təkliflər paketi var. Eyni zamanda bu, bir daha Rusiyanın regionda nüfuzunun artırılması üçün edilirdi və düşünürəm ki, bu da əksinə alındı. Məlumdur ki, Ermənistan xarici işlər naziri Nalbəndyan Kazan prinsipləri haqqında danışanda da Rusiyanı ön plana çəkməyə çalışırdı. Lavrov və Sərkisyanın görüşündə Ermənistan prezidentinin qoyduğu müəmmalı suallara da Lavrov konkret cavab vermədi və məhz 2-5 aprel əməliyyatının niyə baş verdiyini açıqlamadı. Əsas məqamlardan biri isə süni surətdə təşkil edilən və Sərkisyanın hakimiyyətinin saxlanmasına hesablanan anti-Rusiya mitinqləri idi. Bu da münaqişənin həllində status-kvonun saxlanması üçün atılan addımlardır. Təsəvvürə gətirilə bilməz ki, Rusiyanın xarici işlər nazirinin səfəri vaxtı belə tədbirlər keçirilsin".

**Ekspert təsdiqlədi ki, qondarma qurumun "rəhbəri" Bako Saakyanın çıxışları da nəzəri cəlb edir:** "İndiyə qədər məğlubiyyət üçün cavab verməli olanlar artıq baş qaldırıblar. Bu da Lavrovun səfərindən sonra baş verir və 1994-1995-ci il vəziyyətini gündəmə gətirmək üçün edilir. Əsas məqsəd isə qondarma qurumu tərəf kimi danışıqlarda görmək istəyidir və təbii ki, Azərbaycan tərəfi bunu qəbul etməyəcək. Yenə də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin sülhlə bağlı verdiyi bəyanatların təkrar edilməsi Lavrovun İrəvana "əlidolu" deyil, məhz əliboş getməsindən xəbər verir. İctimaiyyət üçün "5 rayon" və ya "əlavə 2 rayon", kimi fikirləri bildirməklə bir daha qeyd edirəm ki, Rusiya bölgədə öz nüfuzunu artırmağa çalışır. Lakin bu kimi siyasi gedişlərin heç bir effekt vermədiyi artıq məlumdur. Buna görə də düşünürəm ki, münaqişənin həlli üçün Azərbaycanın məhz güc nümayiş etdirməklə təcavüzkarı danışıqlar masasına əyləşdirmək, torpaqlarımızı azad etmək, suverenlik və ərazi bütövlüyü çərçivəsində hər iki tərəfdən milli müqəddəratın həll edilməsi variantı ən mükəmməl addımdır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə son durumu şərh edərkən müharibə ehtimalını istisna etməyib, əksinə, real sayıb. Onun fikrincə, Ermənistanın ordu komandanlığının son təxribatları Azərbaycanı böyük müharibəyə təhrik edir:** "Artıq neçənci dəfədir ki, İrəvandan belə bir açıqlama verilir ki, Ermənistan ordusu Mingəçevir Su-Elektrik Stansiyasına raket zərbəsi endirə bilər. Mingəçevir SES Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir. Stansiyaya raket zərbəsinin vurulması həm bölgədə ekoloji fəlakət yaradacaq, həm də Azərbaycanın böyük hissəsini elektriksiz qoyacaq".

**Əgər Ermənistanın ordu komandanlığı Mingəçevirə raket zərbəsi endirərsə, bu halda nə baş verəcək? E. Şahinoğlu:** "Birincisi, Azərbaycan ordusu da eyni ilə Ermənistandakı stansiyaları uzaq mənzilli raketlərlə vuracaq. Hətta Ermənistanın "Metsamor" atom elektrik stansiyası da hədəf götürülə bilər. İkincisi, Mingəçevir SES-ə raket zərbəsindən sonra Azərbaycan ordusu Dağlıq Qarabağ istiqamətində hücuma başlayacaq və bu müharibəni dayandırmaq mümkün olmayacaq. Üçüncüsü, Azərbaycan müharibəni Ermənistan ərazisinə keçirəcək və bu halda Azərbaycan üçün Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlüyü əhəmiyyət kəsb etməyəcək".

***

Rusiyada da vəziyyətin hər an nəzarətdən çıxacağını anlayırlar. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun "Kremldə Dağlıq Qarabağ münaqişəsi ətrafındakı vəziyyət çox kövrək kimi qiymətləndirilir" sözləri də təsdiqləyir. Yazı çapa hazırlanarkən yayılan məlumat isə Qarabağ müharibəsinin hər an başlaya biləcəyi barədə proqnozların tam real olduğunu təsdiqlədi. Ermənistan prezidenti Serj Sərkisyan 24 apreldə "Bloomberg" agentliyinə müsahibəsində deyib ki, münaqişə zonasında müharibə "istənilən an" başlaya bilər və münaqişənin nizamlanmasına dair danışıqların perspektivi çox azdır. O, müsahibədə ilk dəfə açıq şəkildə bildirib ki, danışıqlardan imtina edir və indiki şərtlərdə danışıqlar prosesinə qayıtmağı planlaşdırmır (virtualaz.org). "Rusiyanın vasitəçiliyi altında əldə edilən atəşkəs daha geniş miqyasda müharibənin əngəllənməsi üçün kifayət deyil", -Sərkisyan bildirib.

Ermənistan prezidenti aprelin əvvəllərində gedən döyüş əməliyyatlarından danışarkən deyib ki, guya Azərbaycan döyüşlərə "bir neçə yüz tank və 30 minə yaxın artilleriya qurğusu" cəlb edibmiş. "Təhlükəsizlik qarantiyası olmadan Ermənistanın sülh danışıqlarına qayıtması ağlasığmazdır. Çünki indi situasiya tamamilə başqadır. Bir tərəfdən biz haradasa danışıq aparacağıq, o biri tərəfdən hərbçilər burada münaqişəni həll etməyə çalışacaqlar?" -Sərkisyan deyib.

**Sərkisyanın bu cür radikal açıqlamanı məhz Lavrovla danışıqlardan sonra verməsi diqqət çəkir. Erməni prezident onu da deyib ki, Lavrov "heç bir yeni təklif gətirməmişdi":** "Çünki o yaxşı başa düşür ki, 4 günlük müharibədən dərhal sonra danışıqlardan bəhs etməyin mənası yoxdur". **Ermənistan prezidenti 4 günlük müharibə haqda danışaraq deyib ki, döyüş əməliyyatları 200 kilometrlik təmas xətti boyu gedib.** "Azərbaycan Dağlıq Qarabağın özünə daxil olub sonra ultimatum irəli sürmək istəyirdi" - o iddia edib. Müsahibədə Sərkisyan ilk dəfə etiraf edib ki, ermənilər bu döyüşlərdə ərazi itiriblər. Onun sözlərinə görə, Azərbaycan qoşunları "təmas xəttinin şimalında və cənubunda" kiçik ərazini nəzarət altına alıb. "Ancaq bu ərazilər strateji əhəmiyyət kəsb etmədiyindən əlavə itkilər hesabına onları geri qaytarmağa cəhd etmirik", - Sərkisyan bildirib.

**Sərkisyan onu da deyib ki, hərbi əməliyyatlar Moskvada baş qərargah rəisləri arasında əldə edilmiş razılaşma ilə dayandırılsa da münaqişə zonasına rus sülhməramlılarının yeridilməsindən söhbət gedə bilməz:** "Hərçənd əvvəllər danışıqlar zamanı Rusiya qoşunlarının münaqişə zonasında yerləşdirilməsini müzakirə olunduğu haqda xəbərlər əsassız deyil, ancaq mən indi belə imkan görmürəm" - o deyib. "Əgər heç bir danışıq yoxdursa, Rusiya qüvvələri Qarabağda necə peyda ola bilər" - Sərkisyan sual edib. Onun fikrincə, Rusiya "irimiqyaslı müharibəni əngəlləmək üçün" Azərbaycanla Ermənistan arasında balanslaşdırma həyata keçirir.

Ermənistan başçısı danışıqların başlaması üçün şərtlər irəli sürərək deyib ki, həmsədr ölkələr təmas xəttində insidentlərin araşdırılması mexanizmini qəbul etdirməli və "bir daha bu cür hadisələrin baş verməyəcəyinə dair" təminat verməlidir. Sərkisyan həmçinin deyib ki, o, 2011-ci ildə Kazan şəhərində Azərbaycan prezidenti ilə aparılan danışıqlarda erməni qoşunlarını 5 rayondan çıxarmağa və regiona sülhməramlıların yeridilməsinə razılıq verməyə hazır olub. Ancaq Azərbaycan tərəfi yeni şərtlər irəli sürüb.

Hələlik Sərkisyanın danışıqlardan imtinasına və səsləndirdiyi iddialara rəsmi Bakının reaksiyası məlum deyil.

**❑ Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

# Ermənistanda kimin hakimiyyətdə olması Azərbaycana ən çox sərfdir?

**Ermənistanda keçirilən aksiyalar, sosial vəziyyətin gərginləşməsi bu ölkədə hakimiyyət dəyişikliyini də istisna etmir. Məlumdur ki, Qarabağ münaqişəsinin başlamasından bu yana işğalçı ölkədə hakimiyyətə gələn qüvvələrlə Azərbaycan tərəfinin mövqeyi hər zaman ziddiyyətdə olub. Bu üzdən problemin həlli uzanıb. Bəs görəsən, Ermənistan siyasi arenasında elə bir şəxs varmı onun hakimiyyətə gəlməsi Azərbaycanın maraqları baxımından ən faydalı olsun?**

**"Yeni Müsavat"ın sualını cavablandıran politoloq Arzu Nağıyev** bildirdi ki, əgər Moskva istəməsə, Ermənistanda heç zaman belə bir siyasətçi mövcud olmayacaq: "Ermənistanda baş verən hadisələrin hamısı bu ölkə hakimiyyətinin özü tərəfindən düşünülmüş şəkildə təşkil olunan aksiyalardır. Eyni zamanda Lavrovun da gedişi bir daha göstərdi ki, Ermənistan Qarabağ ərazisində status-kvonu saxlamaq üçün müxtəlif variantlara əl atır. Qarabağ klanı, məsələn, separatçıların lideri Bako Saakyan elə fikirləşirdi ki, onlar Qarabağdan gəlib Ermənistanda rəhbər ola bilərlər. Lakin bu da gözlənilən bir məsələ deyil. Bu gün də əgər Moskva orada kimisə yetişdirmək istəməsə, başqa elə bir şəxs yoxdur. Yəni bu məsələ ümumiyyətlə, gündəmdə deyil".



**Arzu Nağıyev:** "Moskva istəməsə, Ermənistanda heç zaman belə bir siyasətçi mövcud olmayacaq"



**Zahid Oruc:** "Sərkisyanın qalması Azərbaycanın maraqlarına daha çox xidmət edir"

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc isə Sərkisyanın hakimiyyətdə olmasının Azərbaycanın maraqları baxımından daha faydalı olduğunu bildirdi:** "Təəssüf ki, tez-tez səsləndirilən "Demokratlar savaşmır, onlar müharibə aparmır" formulu Ermənistanda özünün doğrultmur. Yəni orada platformasından, daşıdığı siyasi ideologiyadan asılı olmayaraq, əksər qüvvələr Qarabağ məsələsində hakimiyyəti dəstəkləməyə üstünlük verirlər. Hətta 1997-ci ildən sonra xeyli dərəcədə beynəlxalq və regional reallıqları dərk edən keçmiş prezident Levon Ter-Petrosyan belə Azərbaycan ərazilərinin işğalında iştirak etmişdi. Qətiyyən onu Sərkisyan və ya Köçəryanla müqayisə edib sülh göyərçininə, Azərbaycan üçün sərfəli siyasi fiqura çevirmək olmaz. Əksinə, bəzən müəyyən savadı, dünyagörüşü olan siyasilər daha çox təhlükə törədirlər. Qəribə də görünsə deməliyəm ki, Sərkisyanın hakimiyyəti, iqtidarda qalması ölkəmizin maraqları baxımından daha uyğundur. Bu fikrə gəlməyimin səbəbi Ermənistanın işğal səbəbindən özünü izolyasiyada saxlamasıdır və bu onlara iqtisadi, siyasi, sosial problemlər yaradır. İkincisi, Sərkisyan beynəlxalq siyasəti dərk etməyən, primitiv bir siyasətçidir. Düşmən olsaq da deməliyəm ki, Sərkisyan erməni xalqının özünün potensialına uyğun deyil".

**Zahid Orucun fikrincə, Sərkisyan erməni xalqının milli-strateji inkişafına mənfi təsir göstərməklə də bu xalqı Azərbaycanın arzu etdiyi səviyyədə saxlamağa davam edir:** "Bu baxımdan da o erməni lobbisini Ermənistan ətrafında birləşdirə bilmir. Bu gün erməni mətbuatında "Qarabağa müstəqillik lazımdırmı" başlığı ilə yazılan yazılar əslində milli fikri ifadə edən mövqelərdir. Onlar deyirlər ki, Ermənistanın da öz müstəqilliyini itirib başqa bir dövlətin vassalına çevirən hökumət, Qarabağ üçün də bunu vəd edirsə, bunun onlara nə faydası olacaq? Bütün bunlar sübut edir ki, ermənilər dövlət formalaşdıra bilməyiblər. Ermənistan nə qədər ki, bölgədə Türkiyə və Azərbaycanla münasibətlərini düzəltməyəcək, o zaman nəinki Qarabağda, Ermənistanda belə dövlətçiliyi bərqərar etmək mümkün olmayacaq. Biz müharibə vəziyyətində olduğumuzdan müəyyən qədər emosional yanaşırıq, ancaq Qərb ekspertləri deyirlər ki, bu vəziyyətdə Ermənistanın dövlət qurması mümkün deyil. Son hadisələr fonunda Ermənistanda vəziyyət daha da gərginləşəcək. Məlum məğlubiyyətin ciddi siyasi nəticələri olacaq. Ola bilər ki, bu ölkədəki siyasi qüvvələr Sərkisyan hakimiyyətini sıxışdırıb, qarşıdakı parlament seçkilərində daha çox səs toplaya bilsinlər. Ancaq həqiqət budur ki, bütün digər qüvvələr də Rusiyadan asılıdırlar. Ermənistanda elə bir qərbpərəst qüvvə mövcud deyil ki, cəmiyyətdə nüfuz qazanmış olsun. Ancaq Sərkisyan kimi yetərsiz şəxsin onlara başçı olması bizə bu xalqla problemimizi çözməyə imkan verir. Bu cür zəif rəhbərliklə biz daha asan şəkildə Dağlıq Qarabağ problemini çözə biləcəyik".

❑ **Nərgiz LİFTİYEVA**

# Ermənilər bayrağımızı yandırdı - cavab nə olmalıdır?

**24 aprel qondarma erməni soyqırımı ilə bağlı İrəvanda Azərbaycan və Türkiyə bayraqları yandırılıb. Hər il keçirilən yürüşdə əvvəllər yalnızca bu soyqırımı tanımayan dövlətlərin bayrağı yandırılırdı. Belə görünür, bədxah qonşular bu yolla həm də 4 günlük müharibənin qisasını Azərbaycanın bayrağından almaq istəyiblər.**



**Üzeyir Cəfərov:**
"Azərbaycan hələ uzun müddət Ermənistanı cəzalandıracaq"



**Fazil Mustafa:**
"Biz onları qələbələrimizlə yandırmalıyıq"



**Akif Nağı:**
"Bayraq yandırmaq da bir formadır, onu da edə bilərik"



**Tural Abbaslı:**
"İstəməzdim ki, Azərbaycanda belə bir addım atılsın"

Hərbi ekspert Üzeyir Cəfərov bu işdə Rusiyanın da izinin göründüyünü dedi: "Ermənilərin tarixinə son baş vermiş 4 günlük müharibə elə bir iz qoyub ki, onlar bəlkə də bundan sonra nə qədər ki, qondarma soyqırımı qeyd edib, işğalçı əsgər və zabitlərini anacaqlar, elə o vaxta qədər də Azərbaycanın bayrağını təhqir edəcəklər. Lavrovun İrəvana gəlib-getməsi və ondan iki gün əvvəl Rusiyanın bayrağının yandırılması və dərhal valın dəyişdirilərək Azərbaycan bayrağının Türkiyə bayrağı ilə birlikdə yandırılması mərkəzdən idarə olunan siyasətdir. Azərbaycan hələ uzun müddət Ermənistanı cəzalandıracaq. Nə qədər ki, ermənilər haqq yoluna qayıtmayıblar, nə qədər ki, işğalçı siyasətlərindən əl çəkməyiblər, onların başı çox bəlalar çəkəcək. Azərbaycanın bayrağını yandırırlar, yandırsınlar. Azərbaycan onları başqa cür yandıracaq. Biz təmkinimizi qorumalı və onların səviyyəsinə enməməli, lazımi addımları atmalıyıq. İnşallah, yaxın bir zamanda biz ermənilərin başına necə çərə axtarmalarının şahidi olacağıq".

Deputat Fazil Mustafa ermənilərin bayrağımızı yandırmasını cəbhədəki son baş verənlərlə əlaqələndirmir: "Bu hərəkəti ermənilərin ümumi xəstəliyi ilə izah etmək olar. Ermənilər, ümumiyyətlə, düşmən münasibətini xalqlara qarşı dəyişmirlər. Bu, sadəcə olaraq, anormallıqdır. Bu anormallığın da başqa izahı yoxdur. Ermənilər birinci dəfə deyil ki, Azərbaycanın bayrağını yandırırlar. Bu baxımdan da mən son baş verən hadisəni Azərbaycana olan nifrətlə əlaqələndirirəm. Bu xəstə bir millətdir. Bu xəstəlik də dövlətin özünün ömrünü azaldacaq. Bizimlə nə qədər ki, düşmən olacaqlar, özlərini həmişə təhlükədə hiss edəcəklər, onlarda heç vaxt insan kimi yaşamaq motivasyonu olmayacaq. Erməni uşaqları həmişə vəhşi kimi, başqasına nifrət bəsləyən adam yeyən obrazında böyüyəcək. Bu da xəstə təxəyyülün məhsuludur. Bizim bayrağımızı yandırsalar da biz öz işimizi görüb onları qələbələrimizlə yandırmalıyıq".

**"Azərbaycan da cavab olaraq Ermənistanın bayrağını yandırmalıdırmı" sualını cavablandıran F.Mustafa buna qarşı olduğunu dedi:** "Ümumiyyətlə, bayraq yandırmağa, hətta bu düşmən dövlətin bayrağı olsa belə, münasibətim mənfidir. Düşməni uğurla, qələbə ilə yandırmaq olar".

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı bayraq yandırmağın bir forma olduğunu və bunu edə biləcəklərini dedi:** "Bu, ermənilərin Azərbaycana və Türkiyəyə qarşı nifrətinin göstəricisidir. Həm də müəyyən mənada döyüş meydanında heç nə edə bilmirlər deyə, bayraqdan bu cür intiqam almağa çalışır, hirslərini, hikkələrini bayrağa tökürlər. Bu da onların seçimidir. Dünyada da bu cür praktikalar var ki, dövlətlər bir-biri ilə düşmən vəziyyətində olanda müəyyən adamlar toplaşır və başqa dövlətin bayrağını yandırır. QAT-ın da belə bir praktikası var. Azərbaycanda bu praktikanı elə biz başlatmışıq. Biz də onlara cavabı bayraqlarını yandıraraq deyil, döyüş meydanında veririk. Onların bayrağını yandırmaq da cəmiyyətdə bəzən birmənalı qarşılanmır. Amma bayraq yandırmaq da bir formadır, onu da edə bilərik. Ermənilərin bu hərəkəti onların gücsüzlüyünün göstəricisidir".

**"AĞ blok"un təsisçisi Tural Abbaslı isə bunun ermənilərin cılız və zəif olduğunun göstəricisi olduğunu dedi:** "Sivil dünyada qəbul olunmuş normalar var. Bayraqlar təkcə o hökumətləri təmsil etmir, həm də xalqları, millətləri təmsil edir. Bu və digər problemlərə görə bayraqların təhqir olunması, yaxud yandırılması ən azından etik sayılmır. Mən, ümumiyyətlə, xatırlamıram ki, türk dövlətlərindən hansısa tarix boyu düşməninə belə hörmətsizlik etsin. Biz düşmənimizə belə hörmətlə yanaşırıq. Bu da düşmənə sevgimizdən yox, özümüzün mənəvi və tarixi dəyərlərimizdən irəli gəlir. Bayraq yandırmaq, fikrimcə, cılız məsələdir. Əgər gücün çatırsa, o bayrağı təmsil edən ordunu, xalqı, mədəniyyətini məğlub elə. Biz də ermənilərin bayrağını sabah 50-100 metr düzəldib ən böyük yolun üstündə onu sərək, gedib gələnlər üstündən keçsin. Bu, heç uyğun olmazdı. Ermənilər də bunu etməklə tarixlərinə, kimliklərinə sadiqdirlər. Bizim ermənilərə ən gözəl cavabımız Allahın izni ilə torpaqlarımızı alanda olacaq. Ermənilər Xocalı soyqırımı törədib bizim körpələrimizi, qadınları, yaşlı insanları öldürüblər. İndi biz qisas almaq üçün onların körpələrini, qadınlarını, yaşlı insanlarımı öldürək?! Biz onların döyüşənləri ilə, əli silah tutanları ilə döyüşməliyik".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

# "Müxalifətdə intriqa aparanlarla birlikdə olmaq düzgün deyil"

## Köçəri Nağıbəyli: "Milli Şura və başqa qurumlarda təmsil olunmaq fikrim yoxdur"

**Azərbaycan müxalifətinin öndə gedən simalarından olan Qərbi Azərbaycanlılara Qayıdış Birliyinin sədri, "EL" hərəkatının sədr müavini və Milli Şuranın keçmiş üzvü Köçəri Nağıbəylinin siyasi proseslərdən uzaqlaşdığı müşahidə olunur. Təsadüfi deyil ki, son 1 ildə demək olar ki, onun mətbuat səhifələrində bir açıqlamasına belə rast gəlməmişik. Nağıbəyli əsasən fikirlərini ara-sıra sosial şəbəkələr üzərindən cəmiyyətə çatdırır.**

**Köçəri bəylə bu və ya digər məsələlərlə bağlı söhbət etdik.**

**O, siyasi proseslərdən son ildə uzaqlaşdığını təsdiqləyərək, buna səbəb kimi anasının vəfatını göstərdi:** "Anamın ili çıxmamış siyasi proseslərdə iştirak etmək etik cəhətdən düzgün olmazdı. Ona görə proseslərdə iştirak edə bilmədim. Anamın ili fevralda çıxdı. Bizdə adət-ənənə var. Yasımızı yola verməmiş, başqa proseslərdə iştirak etmirik. Gələcək baxımından təbii ki, vətənimiz, ərazi bütövlüyümüz, torpaqlarımızın işğaldan azad edilməsi üçün gedən proseslərdə siyasi xadim kimi iştirak edəcəm. Hazırda siyasi proseslərdə susqunluğun olduğu ortadadır. Amma buna birmənalı cavab vermək mənim üçün çətindir. Çünki son bir ildəki proseslərdən uzaq olmuşam. Liderlik hər şəxsin işi deyil. Fəaliyyətimizdə səhnədən gediş yoxdur. Proseslərdə olmasam da, təşkilatımız daim baş verənlərə münasibətini bildirib. "EL" hərəkatının sədri Eldar Namazovun səhhətində son iki ildə problemlər oldu. Ona görə proseslər bir qədər uzandı. Artıq o, müalicəsini başa vurub, aktiv siyasətə qayıdır. Onunla görüşmüşəm. Yaxın zamanlarda siyasətdə gedən proseslərdə Eldar müəllim aktiv iştirak edəcək. Onunla daim birlikdə fəaliyyət göstərmişik, yenə də belə olacaq. Bundan sonra Milli Şura və başqa qurumlarda təmsil olunmaq fikrim yoxdur. Amma müxalifətin toparlanmasına böyük ehtiyac var. Yeni bir güc mərkəzi yaradılmalıdır. Müxalifətdə intriqa aparanlarla birlikdə olmaq bəri başdan düzgün deyil. O şəxslər bəllidir. Əgər bir-biri ilə intriqa aparacaqlarsa, birliyə ehtiyac qalmır. İllər öncə yaratdığımız İctimai Palata böyük işlər gördü. Hazırda belə bir qurumun yeri görünür. Ziyalıların və öndə gedən siyasətçilərin yeni birliyinə ehtiyac var. Belə bir birlik yaranarsa, biz də iştirak edərik.

### "Səfər Əbiyevlə Zakir Həsənov arasındakı fərqi görməmək mümkün deyil"

Çünki güclü müxalifət olmasa, güclü dövlət də olmayacaq".

**"EL" hərəkatının sədr müavini son bir ildə siyasi proseslərdə bəzi dəyişikliklərin olduğunu söylədi:** "Siyasi məhbusların hamısı tam azad olunmayıb. Amma ötən **gərginliyə də münasibət bildirdi:** "Hadisələr başlayanda, buna biganə qala bilməzdim. Mən də öz fikirlərimi bildirdim ki, hər kəs ordunun yanında olmalıdır. Belə də oldu. Düşünürəm ki, torpaq məsələsində Azərbaycanda iqtidar-müxalifət anlayışı aradan qalxmalı- nistandan çəkinmək lazım deyil. Onlar bizim torpaqları qaytarmırlarsa, hərbi yolla azad etməyə məcburuq. Ordumuzun hər cəhətdən güclü potensialı var. Özüm daxil olmaqla, istənilən yerə gedib torpaqlarımızı azad etməyə qadirik".



**Köçəri Nağıbəyli müdafiə naziri Zakir Həsənovdan da söz açdı:** "Zakir Həsənovdan tam razı qaldım. O, peşəkar zabit, hərbçidir. Nizam-intizamı sevən şəxsdir. Hər halda, göz qabağındadır. Səfər Əbiyevlə Zakir Həsənov arasındakı fərqi görməmək mümkün deyil. Müxalifətdə olsaq da, gərək obyektivliyi söyləyək. Hər şeyə qara demək düzgün olmazdı. İndiki vəziyyət əvvəlkindən qat-qat yaxşıdır. Hərbidə olanlardan maraqlanmışam ki, Zakir Həsənov orduda da ciddi intizam yaradıb, qələbə əhval-ruhiyyəsini gücləndirib".

**Müsahibimiz son günlərdə "talış separatizmi" məsələsinin gündəmə gəlməsinə də toxundu:** "Bu məsələyə qərbi azərbaycanlı kimi yox, bir vətəndaş kimi münasibət bildirirəm. Azərbaycanın ərazi bütövlüyü hər bir vətəndaş tərəfindən dəstəklənməlidir. Talış və digər məsələləri ortaya atanlar zaman-zaman çirkin siyasətlərindən istifadə ediblər. Məqsəd çaxnaşma yaratmaqdır. Bir neçə şəxsi talış millətinin simasında qələmə vermək düzgün deyil. Talışlar bizim kimi Qarabağda can qoyublar, qan töküblər.

### "Cəbhədə baş verənləri böyük uğur hesab edirəm"

ay bəziləri prezidentin imzaladığı əfv sərəncamı ilə azadlığa çıxdı. İqtidar bu prosesi davam etdirib, bütün məhbus siyasiləri azad etməlidir. Düşmənçiliyə son qoyulmalıdır. Qarabağ boyda dərdimiz var. İqtidar daxilində də islahatlara ciddi ehtiyac var. Qohumluğa görə vəzifələrə təyin olunma hallarına son qoyulmalıdır. Yalnız qeyd etdiyim yollarla Qarabağ savaşında daha önə gedə bilərik. Qarşıdan önəmli günlər gəlir. dır. İqtidar, müxalifət və xalq Qarabağ məsələsində bir arada oldu. 4 günlük savaşda dünya Azərbaycan ordusunun bacarığını gördü. Şəxsən cəbhədə baş verənləri böyük uğur hesab edirəm. 25 ildən sonra ilk dəfə idi ki, xalqımızın üzü gülürdü, ruh yüksəkliyi yerində idi. Bu, çox sevindirici hadisə idi. Qarabağ məsələsində sülh yolu ilə baş tutmadı, hərbi yolla bu məsələni həll etmək lazımdır. Rusiya onsuz da daim erməninin yanında

### "Talışlar xalqımızla birlikdə Qarabağda can qoyublar, qan töküblər"

İqtidar bundan istifadə edib, siyasi məhbusları azad etməli, Avropadan gələn təzyiqlərin qarşısını almalıdır. Milli birlik buradan yaranır. Özüm də vaxtilə günahsız həbsdə olmuşam. Bunun nə demək olduğunu yaxşı bilirəm".

**K.Nağıbəyli aprelin əvvəllərində cəbhədə baş verən** olub. Ermənilər kimdirlər ki, bizə qarşı mübarizə aparsınlar. Rusiya faktoru olsa da, bizim də arxamızda Türkiyə, Pakistan kimi böyük orduları olan, dünya siyasətində önəmli yerləri tutan ölkələr var. Daim ölkəmizlə bir yerdə olduqlarını deyirlər. Mənə elə gəlir ki, Rusiyadan və Ermə- Sadəcə, bəzi avaralar ortaya atırlar. Onlar da düşmənin agentləri ola bilərlər. Azərbaycanın qərbi, şərqi, şimalı, cənubu vahid dövlətdir. Bu dövlətin bayrağın altında bir olmalıyıq. Rusların ölkəmizdəki bölücü fəaliyyətləri baş tutmayacaq. Azərbaycan türkləri burda yaşayan digər xalqlarla dost olub. Heç bir millət bizdən pislik görməyib. Burada türkün yaşayışı necədirsə, talışınkı da elədir".

### "Torpaq məsələsində Azərbaycanda iqtidar-müxalifət anlayışı aradan qalxmalıdır"

❑ Cavanşir ABBASLI



# 90 saylı dairədən deputatlığa namizədliyini irəli sürən yoxdur

## Kampaniyanın başlanmasından isə 10 gündən artıq keçib

**İyunun 18-də 90 saylı Ağdaş seçki dairəsində təkrar deputat seçkisi keçiriləcək. Artıq bu barədə prezidentin sərəncamı var. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədlinin "Yeni Müsavat"a verdiyi xəbərə görə, deputatlığa namizədliyini irəli sürmək istəyən şəxslər üçün vaxt 10 gündən artıqdır start götürüb: "Seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı rəsmi mətbuatda dərc olunduqdan sonra deputatlığa namizədlərin irəli sürülməsi başlayır. Cənab prezidentin 90 saylı Ağdaş seçki dairəsində seçki keçirilməsi barədə sərəncamı martın 13-də mətbuatda dərc olunduğu üçün həmin gündən deputatlığa namizədlərin irəli sürülməsinə qanun icazə verir. Namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə namizədliyi irəli sürülən şəxs tərəfindən müvafiq sənədlər dairə seçki komissiyasına təqdim edildikdən sonra beş gün müddətində DSK bu barədə əsaslandırılmış qərar qəbul edir. Namizədliyin irəli sürülməsi təsdiq edildikdən sonra namizəd və ya onun səlahiyyətli nümayəndəsinə imza vərəqələri verilir. Bundan sonra namizədin müdafiəsi üçün imza toplanması mərhələsi başlayır. Sənədlər səsvermə gününə ən azı 30, ən çoxu 50 gün qalmış saat 18.00-dək DSK-ya təqdim olunmalıdır. İmzalar və digər sənədlər təqdim edildikdən sonra DSK 7 gün müddətində baxıb namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul edir".**

Ş.Əsədli qeyd etdi ki, namizədlər irəli sürüldükcə, müvafiq məlumatlar MSK-nın internet səhifəsində xüsusi bölmədə yerləşdiriləcək. Hələlik isə heç bir məlumat yerləşdirilməyib. Bu isə o deməkdir ki, bu günədək namizədliyini irəli sürən yoxdur.

Göründüyü kimi, hələ ki 90 saylı dairədən heç kimin namizədliyi irəli sürülməyib. Hətta hakim Yeni Azərbaycan Partiyası da bu dairədən namizədinin kim olacağını açıqlamayıb.

Müxalifət partiyalarından isə Müsavat, AXP, AXCP seçkidə iştirak etməyəcəklərini ötən həftə açıqlayıblar.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirib ki, 90 saylı seçki dairəsində təkrar seçkidə iştirak edib-etməmək məsələsi bir dəfə partiyanın Rəyasət Heyətində müzakirə edilib, ancaq yekun qərar verilməyib: "Partiyada ümumi fikir belədir ki, seçkidə iştirak edilsin. Amma yekun qərarı partiyanın Rəyasət Heyəti yenidən müzakirə etdikdən sonra verəcək".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, seçkidə iştirak etmək istəmirlər:** "Çünki seçki oyunbazlığında iştirak etməyin mənası yoxdur. Məzahir Pənahov nə qədər ki, MSK-ya rəhbərlik edir, Azərbaycanda ümumiyyətlə seçkidən danışmaq olmaz. Bir demokratın seçki oyununda iştirak etməsi demokratiyaya xəyanətdən başqa bir şey deyil".

**KXCP Ali Məclisinin sədri Bəybala Əbil isə dünən "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, seçkidə iştirak etmək fikrində deyillər:** "Ölkənin 124 seçki dairəsində normal seçki keçirildi ki, indi bir dairədə seçki keçirilsin. 2015-ci ildə parlament seçkilərində iştirak edərək bir daha sübut etdik ki, Azərbaycanda əslində seçki keçirilmir. "AZADLIQ 2015" seçki bloku olaraq Avropa İnsan Haqları Məhkəməsinə 20-yə yaxın şikayət hazırlanır. Şikayətlərin bir hissəsi artıq göndərilib, qalanları da göndəriləcək. Şikayətlərin 11-i KXCP namizədləri tərəfindən verilib. Blok və partiya olaraq bir daha göstərdik ki, artıq 22 ildir ölkəmizdəki parlament qanuni yolla formalaşmır".

**AMİP katibi Elşən Mustafayev isə bildirdi ki, 90 saylı dairədə seçkiyə qatılıb-qatılmamaq məsələsi hələ müzakirəyə çıxarılmayıb:** "Partiya üzvlərindən kimsə o dairədən namizəd olmaqla bağlı istəyini bildirməyib. Bu, ölkə üzrə keçirilən seçki kampaniyası deyil, yalnız bir yer üzrə keçirilən seçkidir. Hesab edirəm ki, əgər həmin dairədən özünü namizəd kimi görən partiya üzvümüz olacaqsa və istəyini ortaya qoyarsa, o zaman partiya olaraq 90 saylı dairədən seçkidə iştirak edib-etməməklə bağlı məsələ müzakirəyə çıxarılacaq".

Qeyd edək ki, ötən il noyabrın 1-də keçirilən parlament seçkilərində 90 saylı dairədən həmin dairənin deputatı Çingiz Əsədullayev yenidən mandat qazanmışdı. YAP-ın siyahısında olmasına baxmayaraq, noyabrın 17-də Mərkəzi Seçki Komissiyasının iclasında 90 saylı Ağdaş Seçki Dairəsində seçkinin nəticələri ləğv edildi və Əsədullayev mandatsız qaldı.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

# Sosial evlərin iki xeyri-tikinti canlanacaq, iş yerləri açılacaq

## Ekspertlər bildirirlər ki, tikinti sektorunda canlanma olsa da, daşınmaz əmlak bazarında durğunluq hələ bir müddət də davam edəcək


Vahid Əhmədov


Şahin Novruzov

**Bakıda tikinti sektorunda yenidən canlanma olacağı ilə bağlı ictimaiyyətdə müzakirələr davam edir. Lakin ekspertlər bildirirlər ki, tikinti sektorunda canlanma olsa da, daşınmaz əmlak bazarında durğunluq hələ bir müddət də davam edəcək.**

Mövzu ilə bağlı musavat.com-a danışan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədov bildirib ki, sosial evlərin tikilməsi ilə bağlı hazırda ciddi işlər aparılır:

"İpoteka krediti üçün 50 milyon vəsait ayrılıb. İndi bunun müəyyən şərtləri var. Bu şərtlər ətrafında müzakirələr gedir. İpotekada şərtlər elədir ki, bundan hər kəs yararlana bilmir. Cənab prezident bütün bunları nəzərə alaraq, sosial evlər haqqında göstərişini verdi. Hesab edirəm ki, sosial evlərin tikilməsi çox vacibdir. Elə insanlar var ki, onların əmək haqları aşağıdır və ipoteka götürə bilmirlər. Eyni zamanda ipoteka Bakı və yaxın şəhərləri əhatə edir. Ancaq sosial evlər layihəsi rayonlarda da həyata keçirilir. Bunun üçün müəyyən proqramlar işlənib hazırlanır. Bu istiqamət üzrə çox ciddi işlər gedir. Sosial evlərin tikintisi özəl şirkətlər tərəfindən də aparıla bilər. Burada heç bir problem yoxdur. Biz istəyirik ki, bu evlər rayonlarda da tikilsin. Çünki orada da evə ehtiyacı olan insanlar çoxdur".

**V. Əhmədov bildirdi ki, sosial evlər layihəsinin başlaması ilə ölkədə tikinti sahəsində də canlanma müşahidə olunacaq:** "Bu layihə əsasında həm insanlar evlə təmin ediləcəklər, həm də əlavə iş yerləri açılacaq. Ümumiyyətlə, dünyada belədir ki, iqtisadiyyatda ciddi böhranlar baş verən zaman daha çox tikinti sektoruna diqqət edirlər ki, insanlar həm işlə, həm də mənzillə təmin olunsun. Hüquqi-normativ sənədlər hazır olduqdan sonra bu işə başlanılacaq".

**Hazırda paytaxtda daşınmaz əmlak bazarındakı vəziyyətlə bağlı isə musavat.com-a bu sahədə uzun müddətdir çalışan Şahin Novruzov danışıb. O bildirib ki, hazırda bazarda tam durğunluqdur. Lakin buna baxmayaraq, yanvar ayı ilə müqayisədə mənzillərin qiymətində 10 faiz bahalaşma var:** "Əmlak bazarında əvvəlki aylarla müqayisədə demək olar ki, tam durğunluqdur. Ay ərzində satış demək olar ki, olmur. Bu durğunluq get-gedə də artır. Durğunluğun aradan qaldırılması üçün ipoteka kreditlərini gündəmə gətirdilər. Lakin bunun da şərtləri çox ağır idi. İndi daha da mürəkkəbləşdiriblər. İlkin ödəniş 20 faizdən 40 faizə qaldırılıb. Banklar uzunmüddətli kreditlər vermirlər. Bu isə dolayısı ilə bazara öz təsirini göstərir və durğunluğa səbəb olur. İpoteka ilə ev götürmək artıq xəyalların məhsuluna çevrilib. Mənzillərin tikintisinə gəlincə isə deyərdim ki, bu sahədə də durğunluqdur. Əvvəlki kimi tikinti işləri aparılmır. Yəni söylənilən o tikinti bumu hələ baş verməyib. Sosial evlərin tikintisi haqqında məlumat var. Bakının beş rayonunda beş və doqquz mərtəbəli binaları söküb, yerində çoxmərtəbəli binalar tikəcəkləri ilə bağlı bizdə də məlumat var. Ancaq bu sahədə uzun müddətdir olan adam kimi deyirəm ki, indiki vəziyyətdə belə bir layihənin həyata keçirilməsi mümkün deyil. Görünür, buna görə də binaların söküntüsünə başlanılmadı. Dörd blokdan ibarət 5 mərtəbəli binada 78, 6 blokluda isə 100 ailə yaşayır. Bu ailələri yerbəyer etmək asan məsələ deyil. Hesab edirəm ki, heç bir ailə qaldığı mənzildən yaxşı şərait vəd olunmayan evə köçməz. Konstitusiyamıza görə də mülkiyyət toxunulmazdır. Yəni onları heç kim mənzillərindən məcbur çıxara bilməz. Həmçinin bunun mahiyyəti odur ki, mülk sahibi onun qiymətini də özü təyin edir. Ona görə də bu proses uzun zaman və xüsusi proqramlar tələb edir".

**Ş. Novruzov bazardakı qiymətlərdən də danışıb:** "Kirayə mənzil bazarında qiymətlər elə yanvar ayında olduğu kimi aşağıdır. Kirayə bazarında həmçinin tələbat da aşağı düşüb. Lakin mənzil bazarında demək olar ki, yanvar ayı ilə müqayisədə 10-15 faiz qiymət artımı var. Ancaq alıcı yoxdur. Qiymət artımı manatın ikinci devalvasiyası ilə əlaqədardır. Lakin yenə də deyirəm ki, satıcılar qiyməti qaldırsalar da mənzil alan yoxdur".

❑ Əli RAİS

# Mərkəzi Bankın son şansı - dollar ucuzlaşdırılır...

## Ekspertlər bildirirlər ki, nüfuzunu itirmiş qurum növbəti devalvasiya təhlükəsinin məsuliyyətini yeni yaradılan palatanın üstünə atmaq istəyir...

**Milli valyuta olan manat dollar qarşısında dəyər qazanmağa başlayıb. Artıq bir dollar 1,50 manat civarındadır. Ekspertlər dolların ucuzlaşması prosesinin səbəblərini musavat.com-a açıqlayıblar. Bildirilir ki, bu, sırf inzibati metodla atılan addımdır. Həmçinin manatın bahalaşdırılmasının arxasında Mərkəzi Bankla yeni yaradılan Maliyyə Bazarlarına Nəzarət Palatası arasında münasibətlərin dayandığı da bildirilir. Belə ki, Mərkəzi Bank əlində olan son şansdan istifadə edərək manatı bahalaşdırır və bununla gələcək devalvasiyanın məsuliyyətini palatanın üzərinə atmaq istəyir...**



**Ekspert Natiq Cəfərli musavat.com-a açıqlamasında bildirib ki, səbəblər sırf inzibatidir:** "Çünki inzibati qaydalar səbəbindən Azərbaycanda hər hansı bir məntiqi, iqtisadi analizə görə üzən məzənnə prinsipi yoxdur. Rusiyada bilirik ki, dünya bazarında neft ucuzlaşanda rubl bahalaşır, yaxud əksinə. Yəni bir mütənasiblik var. Azərbaycanda heç bu mütənasiblik, bağlılıq da yoxdur. Yeganə səbəb manat kütləsinin sıxılması, sərt monetar siyasətlə bağlıdır. Bu, müəyyən dərəcədə məzənnəni indiki səviyyələrdə, yəni 1,50 civarında saxlamağa imkan verir. Amma iqtisadi aktivliyə çox böyük zərbə vurur. Yəni ticarət dövriyyəsi azalır, insanların gəlirləri azalır. Bu sərt monetar siyasətin çox böyük fəsadları olacaq. Yəni hökumət qurumları, dövlət qurumları bir problemi həll etməyə çalışarkən digər sahələrdə böyük problemlər yaradırlar. Əsasən də bank sahəsində böyük problemlər yaradılır. Çünki yeni yaradılan palatanın rəhbəri Rüfət Aslanlı da son müsahibəsində kreditləşmənin daha da sərtləşə biləcəyinin anonsunu verdi. Əgər banklarda kreditləşmə sərtləşəcəksə, geri dönüşü problem olan kreditlərin yığılmasında fasilə davam edəcəksə, bir müddət sonra banklarda böyük problem yaşanacaq və onların bir-bir sıradan çıxmasının şahidi olacağıq. Yəni məzənnədə inzibati metodlarla sabitlik yaratmaq digər makroiqtisadi göstəricilərə və ümumiyyətlə, iqtisadi aktivliyə böyük zərbə vurur".

**Ekspert bir müddət sonra bu siyasətdən əl çəkiləcəyini də proqnozlaşdırıb:** "Bu, düşünürəm ki, çox sərt bir siyasətdir və bir müddət sonra hökumət və Mərkəzi Bank bu siyasətdən əl çəkməyə məcbur qalacaq. Çünki bu, ölkədə ümumi daxili məhsulun daha da sürətlə azalmasına, iqtisadi aktivliyin zəifləməsinə, insanların gəlirlərinin azalmasına, daha böyük problemlərə gətirib çıxaracaq. Sosial gərginliyin artması ilə də nəticələnə bilər. Ona görə də düşünürəm ki, bir müddətdən sonra hökumət məcbur olub o siyasətdə dəyişiklik etməli olacaq. Çünki uzun zaman sırf sərt monetar siyasət nəticəsində makroiqtisadi sabitliyi saxlamaq mümkün deyil. Birinci etapda bəlkə də müəyyən dərəcədə stabillik yaratmaq üçün atılmalı olan addım idi. Amma bunun ardınca ciddi islahatlar paketi də olmalıdır ki, mənfi effekt verməsin. Amma indi görünən odur ki, əks effekt verməyə başlayır və bir müddət sonra bu siyasətdən əl çəkməyə məcbur olacaqlar".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, bu gün maliyyə sistemində vəziyyət gərgindir:** "Bir tərəfdən milli valyuta kütləsi azalıb. Pul istənilən iqtisadiyyatın qanıdır, pul yoxdursa, iqtisadiyyat işləyə bilməyəcək. İndi Mərkəzi Bank "qan dövranını" da işləməyə qoymur. Mərkəzi Bank ona görə belə edir ki, qorxur. Yəni milli valyutada kredit versə, banklarda özbaşınalıqdır, onlar dərhal həmin milli valyutanı dollara çevirəcəklər. Mərkəzi Bankın valyuta ehtiyatları yenə azalacaq və növbəti devalvasiyanı qaçılmaz edəcək. Bu da ona görə baş verir ki, Mərkəzi Bankın kreditləri banklar tərəfindən təyinatı üzrə istifadə edilmir. Əslində normal iqtisadiyyatda Mərkəzi Bank banklara kredit verəndə təyinatını bildirir. Yəni bildirilir ki, bu pul valyuta bazarına çıxarılmasın. Sadəcə, on illər ərzində Mərkəzi Bank normal bank sistemi qura bilməyib. Verilən kreditlərin təyinatı üzrə istifadə edilməsi mexanizmləri yoxdur. Bunu da bir günə qurmaq mümkün deyil. Buna görə Mərkəzi Bank qorxur. İndi vəziyyət bir tərəfdən də fərqlidir. Əvvəl banklar kredit üçün özləri müraciət edirdilər. İndi banklar yalnız Maliyyə Bazarlarına Nəzarət Palatasının razılığı ilə Mərkəzi Bankdan kredit ala bilirlər. Buna görə də çox paradoksal vəziyyətdir. Yəni banklar əlbəttə ki, milli valyutada kredit götürmək istəyirlər. Sadəcə, palata çətin vəziyyətdədir. Yəni palata əgər razılıq versə və banklar Mərkəzi Bankdan kredit götürməyə başlasalar, sabah həmin pul valyuta bazarına axışsa, Mərkəzi Bankın valyuta ehtiyatları azalsa, növbəti devalvasiya olsa, Mərkəzi Bank bütün məsuliyyəti palatanın üstünə yıxacaq. Bildiriləcək ki, Mərkəzi Bank hətta milli valyutanın məzənnəsini aşağı salmışdı, 1,55-dən 1,50-yə salmışdı, amma palatanın banklara kredit verilməsi üçün müraciəti növbəti devalvasiyaya yol açdı. Yəni palata kreditlərin təyinatı üzrə istifadəsinə nəzarət edə bilmədi, buna görə valyuta bazarında çaşqınlıq yarandı və növbəti devalvasiya oldu. Məhz buna görə də palata ehtiyatlı davranır. Buna görə palata kreditləşməni qadağan edir, dayandırır. Çünki palata hələlik quruculuq dövründədir. Palatanın idarəetmə orqanı direktorlar şurasıdır və idarə heyətidir. Bu orqanlar tam seçilib formalaşmayıb, kadrlar məsələsi sonadək həll edilməyib. Digər tərəfdən, Mərkəzi Bankla palata arasında təhvil-təslim prosesi də bitməyib. Palata gərək bütün bu bank nəzarəti ilə bağlı sənədləri Mərkəzi Bankdan götürsün. Belə bir şəraitdə, palata hələlik banklara tam nəzarət edə bilmir. Buna görə də palata üzərinə məsuliyyəti götürməyə qorxur. Bu şəraitdə də udan Mərkəzi Bankdır. Mərkəzi Bank hamıya bəyan edir ki, mən devalvasiyanı saxlamışam, milli valyuta nəinki sabitləşib, hətta xeyli möhkəmlənib və problem də yoxdur. Əgər banklara kredit lazımdırsa, buyursunlar. Yəni palata razılıq versin, kredit verim. Mərkəzi Bank belə vəziyyətdə sadə dillə desək, yaxşı oğlan olub, palata isə əksinə".

**Ekspertin sözlərinə görə, son nəticədə milli valyuta kütləsinin azalması bank sistemini çökdürür və ən əsası, iqtisadiyyatımıza çox mənfi təsir göstərir:** "Yəni pul yoxdursa, iqtisadiyyat fəaliyyət göstərə bilməyəcək. Sadəcə, burada Mərkəzi Bank özünü kənara qoyub, öz problemlərini həll edir və hamının gözündə problemsiz olduğunu göstərir. Son nəticədə uduzan iqtisadiyyatımızdır. Manatın belə möhkəmlənməsi son nəticədə bütün iqtisadiyyatımızın çökməsi ilə nəticələnər. Düşünürəm ki, dolların düşməsi çox da davam etməyəcək, böyük ehtimalla 2-3 aya, yəni palata özünü tam tutandan sonra, bank nəzarətini tam həyata keçirdikdən sonra dövriyyəyə milli valyuta axını davam edəcək. Bundan sonra isə milli valyutanın devalvasiya prosesinin davam edəcəyi qaçılmazdır".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

**Xəbər verildiyi kimi, aprelin 24-də erməni millətçilərinin Tehranda keçirmək istədiyi aksiyaya polis müdaxilə edərək buna imkan verməyib. Bundan sonra ermənilər tədbirlərini kilsədə keçirməyə məcbur olublar.**

# Ermənilərin mövqeyi İranda zəifləyib-24 aprel aksiyası niyə dağıdıldı?

## Tehran küçələrində saxta soyqırım tədbirinin keçirilməsinə qadağa Türkiyədən çox, Azərbaycan amili ilə bağlıdır

Erməni mövzusu daha çox İranın Ermənistana dəstəyi ilə gündəmə gətirilsə də, bu ölkədə yaşayan böyük bir erməni toplulumu çox da xatırlanmır. Yeri gəlmişkən, Azərbaycan və indiki Ermənistan ərazilərinə ermənilərin böyük çoxluğu İran və Türkiyə ərazilərindən çox da uzaq olmayan keçmişdə - 19-cu əsrin əvvəllərində köçürülüb.

İranda hazırda 100 minə yaxın erməni yaşayır. Bunlar əsasən Tehran, İsfahan, Qəzvin, Təbriz və Yeni Culfa şəhərlərində yaşayırlar. İslam inqilabından sonra erməni icmasının bir qismi ölkəni tərk edərək Avropa və Amerikaya yerləşib. Ancaq bununla belə, İranda ermənilər bəhailər, zərdüştilər və yəhudilərlə birlikdə önəmli etnik və dini azlıqlardan biridir. Və hər nə qədər İran İslam Respublikası olsa da, dini azlıqların da hüquqları tanınıb. Məsələn, İran ermənilərinin kilsələri, mədəniyyət mərkəzləri, hətta diskotekaları belə var.

Ermənilər siyasi həyatda da aktivdirlər. Son parlament seçkilərində ermənilərin neçə mandat qazanması haqda məlumatları dəqiqləşdirə bilməsək də, bundan əvvəl ermənilər iki deputatla təmsil olunurdular. Eyni zamanda İran erməniləri 3 mərkəz- xəlifəlik olmaqla idarə olunur. Bunlar Tehran, Şimal (Azərbaycan əraziləri) və Cənub (İsfahan və ətrafı) xəlifəlikləridir. Xəlifəliklər ermənilərin şəxsi və sosial münasibətlər, eyni zamanda miras mübahisələri, kilsə, məktəblər və qəbiristanlıqlar idarəçiliyi işlərini həyata keçirir. Bunların baş qurumu isə İran Erməni Xəlifəliyi Şurasıdır. Bu qurum İranda yaşayan ermənilərin dini, mədəni, sosial, xeyriyyə fəaliyyəti, idman, sənət və siyasi fəaliyyətlə məşğul olan ən böyük qurumdur. Xəlifəlik seçkili qurumdur, 55 nəfərdən ibarət üzvləri hər 4 ildən bir seçilir. Xəlifəlik Şurasının başında isə erməni katolikosu dayanır. Evlənmə, boşanma, xaç suyuna salınma (vəftiz), məhkəmə işlərində ermənilər bu quruma müraciət edir. Erməni kilsələri, məktəblər və mədəniyyət mərkəzləri də bu qurumdan idarə olunur.



Tehran erməni xəlifəliyində erməni dili ali kursları, eyni zamanda İslami Azad Universitetində erməni dili və ədəbiyyatı bölümü fəaliyyət göstərir. "Alik" qəzeti, "Ararat", "Abaqa", "Araks", "Levis" jurnalları və eləcə də erməni dilində kitab nəşr edən nəşriyyatlar mövcuddur. 3 ayda bir dəfə fars dilində nəşr olunan "Peyman", 2 həftədə bir dəfə fars və erməni dillərində nəşr olunan "Hooys" jurnalıdır.

Bundan başqa, İranda erməni "Ararat", "Sipan" idman və mədəniyyət klubları, İran Universitetləri Məzunları Cəmiyyəti, "Nairi" klubu, İranlı Ermənilərin Sosial və Mədəniyyət Dərnəyi, Erməni Qadın Dərnəyi, Erməni Qadınları Xeyriyyə Dərnəyi, Erməni Şair və Yazarlar Dərnəyi, eyni zamanda müəllimlər, həkimlər və memarlar dərnəkləri və sair birliklər fəaliyyət göstərir. Erməni idman klubları İran liqasında oynayır.

Hazırkı Ermənistan ərazisinə ermənilərin bir qismi İrandan köçürülsə də, 1921-ci ildə SSRİ yaranandan sonra çoxlu sayda erməni bu ölkəyə qaçıb. Onların bir qismi İranda qalıb, bir qismi isə Avropa və Amerikaya yerləşib. Bu səbəbdən də digər bölgə ölkələrində olduğu kimi, İranda da fəal erməni diasporu formalaşıb. Hazırda erməni qrupları xeyli fəaldırlar. İran-İraq müharibəsində 89 erməni ölüb və bir neçə il əvvəl İran prezidenti Milad bayramı günü onların ailəsini də ziyarət etmişdi. Bu isə ermənilərin İran cəmiyyətində fəal bir qrup olduğunu göstərir.

**İranlı politoloq Məsud Məhəmməd Sədr deyir ki, İran ermənilərinin fəaliyyətini iki mərhələyə bölmək olar. Birinci mərhələ Səfəvilər dönəmindən Qacarlara, daha doğrusu, Məşrutə inqilabı dönəminə qədər və bir də ondan sonrakı dövrdür. Ekspert deyir ki, birinci dönəmdə ermənilər daha fəal olub:** "Daha çox diplomatiya və sənətdə çox önəmli rol oynamışlar. İranın Avropa ilə körpüsü olub, tərcüməçi kimi çalışıb, həm də ikitərəfli casus olublar. Eyni zamanda sənətdə heykəltəraşlıq, bəstəkarlıq və musiqi sahəsində çox təsirli olublar".

**Ekspertin fikrincə, daha sonrakı dönəmdə ermənilərin İranda rolu xeyli azalıb. Bunun isə bir neçə səbəbləri olub. İlk növbədə fəal əhalinin böyük qismi Ermənistana gedib, bir qismi isə Avropaya üz tutub. Digər tərəfdən, artıq müsəlman əhali də elm və təhsildə müəyyən mövqe qazandıqdan sonra əvvəlki kimi ermənilərə ehtiyac qalmayıb. M.Sədr deyir ki, bütün bunların yanında ermənilər heç bir zaman mövcud hakimiyyətlərə qarşı çıxmayıblar:** "İran cəmiyyətində də heç zaman onlara basqı olmayıb. Ola bilsin ki, Qafqaz və Anadoludan fərqli olaraq İranda azlıq olublar və etdiyi hərəkətlərin onlara baha başa gələcəyini biliblər. Bu səbəbdən də hər zaman mövcud hakimiyyətləri dəstəkləyiblər, iqtidarlara "bizdən sizə zərərə gəlməz" mesajı verməyə çalışıblar".

Məlum olduğu kimi, birinci Qarabağ müharibəsi zamanı İran məhz hər iki ölkə ilə qonşuluğu amilindən istifadə edərək münaqişənin həlli prosesinə müdaxilə etmək istəsə də, Tehran danışıqları Şuşanın işğalı ilə fiaskoya uğradı. Bundan sonra İranın münaqişə və Qafqazdakı proseslərə təsiri azalıb. Ancaq son illərdə Azərbaycanın İranla münasibətlərinin istiləşməsi, iki ölkə arasında ciddi yaxınlaşma Tehranın daha əvvəl tərəfsiz yanaşma siyasətinə də təsirini göstərib. Artıq Tehran rəsmiləri açıq və qəti şəkildə Azərbaycanı dəstəkləyən bəyanatlar verir. Son olaraq erməni qrupların Tehranda 24 aprel aksiyasına icazə verilməməsi Türkiyədən çox Azərbaycan amili ilə bağlıdır. Çünki ermənilər bir qaydada olaraq 24 aprel aksiyalarını Azərbaycana qarşı aksiyalara çevirirlər. Görünür, bu səbəbdən də Tehran bu dəfə ermənilərin "soyqırım" aksiyasına icazə verməyib.

**Kənan RÖVŞƏNOĞLU**

# Zərrab AKP iqtidarı üçün niyə önəmlidir?

## Türkiyə hökuməti onu həbsdən qurtarmaq üçün qanun qəbul edir - təfərrüat

**Xəbər verdiyimiz kimi, xarici ölkədə məhkum olunan türk vətəndaşı və ya Türkiyə ilə sıx sosial əlaqələri olan şəxslər, hökm verilməsi məqsədilə Türkiyəyə ekstradisiya olunacaq. Cəza Məsələlərində Beynəlxalq Hüquqi Əməkdaşlıq Qanunu layihəsi, TBMM-in plenar iclasında qəbul edilərək, qüvvəyə minib. Qanun istintaq işinin xarici dövlətə təhvil verilməsi üsullarını da əhatə edir. İstintaq işinin xarici dövlətə təhvil verilməsinin bir ildən artıq həbs cəzası alanlara şamil olunması şərti qoyulacaq.**

Ölkədən kənarda törədilən və əfvə düşməyən, bir ildən çox həbs cəzası alan cinayətkarlar xarici dövlətlərdən təhvil alına bilər. Lakin həmin şəxs Türkiyədə mütəmadi olaraq yaşamırsa, Türkiyə vətəndaşı deyilsə, cinayət cəza tələb edən dövlətin sərhədlərindən kənarda törədilibsə, daha əvvəl Türkiyədə mühakimə olunubsa, təhvil tələbi qəbul edilməyəcək. Təhvil şərtlərinin olmadığının təsbit edilməsi və ya təhvilin Türkiyənin milli təhlükəsizliyinin təməl prinsiplərinə uyğun olmaması halında, təhvil tələbi Ədliyyə Nazirliyi tərəfindən ləğv ediləcək.

Əgər həmin şəxs təhvil verilərsə, onun cəzası Türkiyənin cəza qanunlarına əsasən icra ediləcək. Təhvil qərarının qəbul olunması üçün məhkəmə məsrəflərini hökmlü şəxs ödəməli olacaq. Lakin həmin şəxsin buna imkanı çatmırsa, məsrəflər ödənilmədən də təhvil prosesi başladıla bilər.

Türkiyə vətəndaşı olan İran əsilli Rza Zərrab da bir müddət öncə ABŞ-da saxlanılmışdı. Əgər məhkəmə nəticəsində ona qarşı cəza hökmü oxunsa, Rza Zərrab da bu qanundan yararlana biləcək.

Müşahidəçilərin də bildirdiyinə görə, indiki ərəfədə bu qanunun qəbulu məhz R.Zərrabın azadlığa qovuşması, cəmi bir il cəza çəkəndən sonra Türkiyəyə ekstradisiya edilməsi üçündür. Və bu, AKP iqtidarının R.Zərrab mövzusunda etdiyi ilk jest deyil. Daha öncəki həbsi zamanında da Türkiyə hakimiyyətinin onunla bağlı güzəştləri onun Ərdoğan və ətrafı üçün önəmli, sevimli fiqur olduğunu sübut edib.


Rza Zərrab

Əsas sual isə budur - niyə?

Türkiyə mətbuatındakı versiyalara diqqət edək. Xüsusən müxalifət mediasında bu durumla bağlı ciddi təhlillər var. İlkin versiyalardan biri Zərrabın Türkiyə iqtidarı ilə aralarındakı ciddi "pul haqq-hesabı"nın olmasıdır. Necə deyərlər, Zərrab nazirlərə qutu-qutu pul paylayır, ona görə də hər kəs onun qabağında ikiqat əyilir. Amma onları Zərrabdan asılı edən təkcə qutu-qutu dollarlar deyil. Çünki Ankarada dollar paylayan yeganə adam Zərrab deyil. Başqa firmalar da qutu-qutu, çanta-çanta pul paylayırlar. Bunu Ankaraya bələd olan bütün qəzetçilər görür, hiss edir, bilirlər.

Amma Zərrabın özəl statusa sahib olmasının səbəbi başqadır. Zərrab beynəlxalq "pul yuma" əməliyyatının açar fiqurudur. Bir ölkədə nə qədər çox pul yuyulursa, o qədər də çox faiz dönər. O faizləri alanlar əslində bir cinayətdə iştirak etdikləri üçün faiz aldıqlarını bilirlər.

Daha dəqiq yazaq. Zərrab 17-25 dekabr sənədlərindən də göründüyü kimi, bir beynəlxalq cinayət koalisiyanın açar ismi olduğu üçün bu qədər önəmlidir. İran, Dubay, Türkiyə, Rusiya, Çin arasında döndürülən, kimlərinsə cibini dolduran bir təşkilatın deşifrə olmuş ən önəmli fiquru olduğu üçün bu qədər önəmlidir.

Ona görə də hakimiyyət Zərrabı təcili şəkildə bu cinayət yükündən qurtarıb, nüfuzlu bir iş adamı kimi bazara çıxarmağa çalışır. Daha öncə bunu tanınan-tanınmayan təşkilatların əli ilə edirdilər - ona "ilin iş adamı" adlı mükafatlar verdirməklə. Bundan başqa, Zərraba xeyriyyə təşkilatlarında təmsil olunması, xeyriyyə işləri ilə məşğul olması da məsləhət görülür ki, faktlardan da göründüyü kimi sonuncu bunu edir.

AKP iqtidarının Zərrab məsələsində nigarançılığı və ondan doğan canfəşanlığının ən önəmli səbəblərindən biri isə heç şübhəsiz ki, məhkəmə zamanı deyəcəkləridir. Çünki onun ifadəsi təkcə özünü yox, əməllərində payı olan Türkiyə siyasətçiləri və AKP rəhbərliyində təmsil olunanları da ifşa edəcək.

**"Yeni Müsavat" qəzetinin Türkiyə müxbiri Kənan Rövşənoğlu bizə açıqlamasında bu mənzərəni daha dəqiq təhlil etdi. Dedi ki, R.Zərrab sıradan bir təbrizli qızıl alverçisi deyil. Baxmayaraq ki, böyük qızıl tacirlərindən hesab olunur və çox varlı bir ailədəndir. Müsahibimizin sözlərinə görə, onun əsas fəaliyyəti İrana embarqo tətbiq edilən zaman üzə çıxdı:** "Sonradan açıqlanan məlumatlardan belə məlum olur ki, Rzanın da daxil olduğu şəbəkə İran nefti və qazının Türkiyə üzərindən "qara bazar"da satışını təşkil edib. Bunun qarşılığında isə nağd pul və qızıl alınaraq İrana göndərilib. Söhbət 86 milyard dollarlıq bir dövriyyədən gedir. İranda Əhmədinejad dönəmində bu gizli neft biznesini SEPAH xətti ilə bir neçə iş adamları aparıb. Təbii ki, dövlətin dəstəyi ilə. Rza Zərrab iranlı iş adamı Zəncani ilə birgə fəaliyyət göstərib. Təbii ki, Türkiyə üzərindən aparılan bu qara biznesdən rəsmilər də məlumatlı olub. Burda hansı anlaşmanın olduğu, yoxsa işin rüşvətlə həll olunduğu dəqiq bilinmir. Amma Zəncani rüşvət verdiyini də iddia edir. Lakin mənə görə, burda Ankara və Tehran arasında anlaşma olub. Ancaq sonradan İran artıq embarqoları qırmağa başladı, üstəlik, 2013-cü ildə Ruhani hakimiyyətə gəldikdən sonra bu şəbəkəni sıradan çıxardılar. Və İran hökuməti bəyan etdi ki, Zəncani qrupu dövlətdən 2,8 milyard pul oğurlayıb. Zəncani həbs olundu və şəbəkə sıradan çıxarıldı. Eyni zamanda 17-25 dekabr olaylarında Türkiyədə Zərrab da həbs olundu. Ancaq dövlət onu azad etdi".

**K.Rövşənoğlu hesab edir ki, AKP iqtidarının bu addımı səbəbsiz deyil. Belə ki, Zərrabın çoxlu bildikləri var və bu gizli razılaşmanın açıqlanması Türkiyənin maraqlarına cavab vermir:** "Çünki bu şəbəkənin Türkiyədəki fəaliyyətini Zərrab idarə edib. Hansı rəsmi ilə görüşüb, nə deyib, nə verib alındığını o bilir. Türkiyə İranla bir müsəlman həmrəyliyi göstərərək blokadanı bu şəkildə yarmasına imkan yaradıb. Təbii ki, bunun qarşılığı da olub. Yeni ortada çox dolaşıq bir durum var. Bunun açar ismi isə Zərrabdır".

**Müsahibimiz dedi ki, hazırda amerikanlar Zərrabı həbs edib Ankara əleyhinə ifadə almaq, o zaman İrana qarşı embarqonu yarmaqda verdiyi dəstəyi ifşa etməyə çalışırlar. Onun sözlərinə görə, bu səbəbdən də Ankara təbii ki, Zərrabın ekstradisiyasına çalışacaq:** "Amma bunun o qədər də asan olmayacağı məlumdur. Ən mühümü də məhkəmə prosesi Amerikada baş tutsa və Zərrab faktları açıqlasa, o zaman ekstradisiyanın bir mənası qalmır. O zaman artıq Zərrab özü Türkiyəyə qayıtmaqda maraqlı olmayacaq".

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 89 (6410) 26 aprel 2016

# Gədəbəydə məktəb direktoru özünü asdı

## Fəxrəddin Əliyevin intiharına təhsil şöbəsinin müdiri Baxış Nağıyevin adı qarışıb



**Gədəbəydə intihar faktı qeydə alınıb. Özünü asan məktəb direktoru və bələdiyyə başçısı postunu tutan şəxsdir. Redaksiyamıza daxil olan məlumatda deyilir ki, Dəyə Qarabulaq inzibati ərazi vahidliyinə daxil olan Talakənd kənd orta məktəbinin direktoru Fəxrəddin Kamil oğlu Əliyevin asılmış vəziyyətdə olan meyitini yaxınları aşkar ediblər.**

Hadisə yerinə polis və prokurorluq orqanları əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu gəlib. Mərhumun meyiti müayinə olunmaq üçün rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. Mərhumun yaxınları F.Əliyevin ölümündə Gədəbəy Rayon Təhsil Şöbəsinin müdiri Baxış Nağıyevi ittiham edirlər. Bildirirlər ki, F.Əliyev ölümündən əvvəl B.Nağıyevin onu bezdirməsi haqda fikirlər söyləyirmiş. Buna görə də şöbə müdirindən Gədəbəy Rayon Prokurorluğuna şikayətlər olunub.

"Yebi Müsavat"ın əməkdaşı məsələyə aydınlıq gətirmək üçün mərhum F.Əliyevin yaxınları ilə əlaqə saxlayıb. Mərhumun oğlu Elvin Əliyev deyib ki, atasının ölümü ilə bağlı prokurorluğa şikayətlər ünvanlayıblar. Yas məclisini yola verəndən sonra məsələ ilə bağlı daha ətraflı şəkildə fəaliyyətə başlayacaqlar.

Rayondakı mənbələr isə bildirir ki, F.Əliyev yaşadığı rayonda təcrübəli pedaqoq kimi tanınır. O, işini bilən, idarəçilik qabiliyyəti olan şəxs kimi xarakterizə olunur. Rayon sakinləri deyir ki, F.Əliyevin həyatla bu şəkildə vidalaşması mərhumun çox ciddi problemlərlə üz-üzə qala bilməsi və bu səbəbdən intihara əl atması ehtimalını yaradır. Bildirirlər ki, F.Əliyev həyatsevər insan olub, onun ölümündə əlbət ki, çox ciddi səbəblər var.

F.Əliyev məktəb direktorluğu ilə yanaşı, bələdiyyə sədri vəzifəsini də icra edib. Onun intiharında bələdiyyədəki fəaliyyəti ilə bağlı çalarlar ola bilərdimi? Bu suala da rayon sakinlərindən aydınlıq gətirməyə çalışdıq. Sakinlər bildirdilər ki, F.Əliyevin rəhbərlik etdiyi bələdiyyədə ciddi maliyyə məsələləri olmayıb, torpaq islahatı da uzun illər əvvəldən bitib. Bu səbəbdən F.Əliyevin intiharına daha çox çalışdığı məktəbə dövlət büdcəsindən ayrılan vəsaitlərin təhsil müəssisəsinə çatana qədər silinməsi, invertarların ələ keçirilməsi kimi halların rol oynaya bilməsi ehtimalına üstünlük verilir. Bu məlumat fonunda F.Əliyevin ölümündən əvvəl təhsil şöbəsi müdirindən şikayətlənməsi, giley-güzar etməsi haqda bilgilər direktorun ölümündən əvvəl psixoloji gərginlik keçirdiyini söyləməyə əsas verir.

Məktəb direktorunun ölümündə ittiham olunan Gədəbəy Rayon Təhsil Şöbəsinin müdiri Baxış Nağıyevdən münasibət öyrənmək üçün musavat.com-un əməkdaşı onun rəhbərlik etdiyi şöbə ilə əlaqə saxlayıb. Şöbədən bildiriblər ki, B.Nağıyev iclasdadır. Bununla belə, B.Nağıyevi də dinləməyə hazırıq.

F.Əliyevin ölüm faktına görə Gədəbəy Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci - intihar həddinə çatdırma maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.

❑ **E.HÜSEYNOV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**



**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**




## Bankdakı partlayışın səbəbi məlum oldu - qaz sızması

**Bakıda ötən gün baş verən partlayışın təfərrüatları məlum olub. Daxili İşlər Nazirliyindən (DİN) musavat.com-a verilən məlumata görə, hadisə Yasamal rayonu, İnşaatçılar prospektində yerləşən banklardan birinə məxsus ümumi sahəsi 80 kv/m olan nasosxanada qeydə alınıb.**

Partlayış nəticəsində 40 kv/m ərazi uçub. Hadisə zamanı ərazidən keçən Bakı şəhər sakinləri - Gülxar Quliyeva, Namiq Səmədov və Əli Babayev xəsarət alıblar. Xəsarət alanlara yerində ilkin tibbi yardım göstərilib.

Nazirlikdən həmçinin bildirilib ki, baş verən partlayış nəticəsində çoxlu sayda avtomobilə ziyan dəyib, bir gözəllik salonu, bir aptek və bir evin pəncərələri sınıb.

Partlayışın səbəbi də məlum olub - partlayış qaz sızması səbəbindən baş verib.

«Trend»in məlumatına görə, hazırda hadisə yerində "Azəriqaz" İB və FHN əməkdaşları iş aparır.

"Azəriqaz" İB-dən bildirilib ki, hazırda ərazidə və ətraf evlərdə qazın verilişinin bərpası üzrə işlər aparılır.

Faktla bağlı araşdırma aparılır.

## Bakıda mənzilə basqın edən şəxs tutuldu

**Bakıda mənzilə basqın edən şəxs saxlanılıb. APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, aprelin 24-də Yasamal rayonu ərazisində yaşayan Bakı şəhər sakini Amil Musayevin mənzilinə aldatma yolu ilə girən naməlum şəxs onu və bacısı Raisanı bıçaqla hədələyib oradan 560 manat pul və 3 ədəd mobil telefon aparıb.**

Yasamal rayon 28-ci PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətmiş paytaxt sakini, əvvəllər məhkum olunmuş Vüqar Əliyev tutulub.

Faktla bağlı araşdırma aparılır.

## Mühasib qadının stəkanla öldürüldüyü məlum oldu

**Bakıda 76 yaşlı qadının qətlə yetirilməsi hadisəsi ilə bağlı bəzi təfərrüatlar məlum olub. "Report"un xəbərinə görə, Nelli Sultanovanın mənzilinə daxil olan şəxslərin məqsədi onun əmlakını ələ keçirmək olub.**

Məlum olub ki, qonşusu Vüsal İsayev və Bakı şəhər sakini Şəmsi Məhərrəmov N.Sultanovanı stəkanla qətlə yetirib. V.İsayev stolun üstündəki stəkanı götürərək N.Sultanovanın sol gicgah nahiyəsinə bir neçə dəfə vuraraq onu öldürüb.

Qeyd edək ki, aprelin 21-də Bakı şəhər sakini, 76 yaşlı Nelli Sultanovanın qulaq nahiyəsində əzilmiş xəsarətləri olan meyiti yaşadığı Suraxanı rayonunun Hövsan qəsəbəsindəki mənzilində tapılıb.

Polis və prokurorluq orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində onun qonşusu Vüsal İsayev və Bakı şəhər sakini Şəmsi Məhərrəmov tərəfindən tamah məqsədilə qətlə yetirilməsi müəyyən edilib və onlar tutulublar.

V.İsayev və Ş.Məhərrəmov evdən götürdükləri 750 manat pulu, bir ədəd qızıl üzük, iki ədəd qızıl sırğanı təhvil veriblər.

## Havanın temperaturu 29 dərəcəyədək yüksələcək

**Aprelin 26-da Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, səhər bəzi yerlərdə zəif duman olacaq, cənub küləyi gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 10-13, gündüz 18-23, Bakıda gecə 10-12, gündüz 20-22 dərəcə isti olacaq.

Bu gün Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, səhər ayrı-ayrı yerlərdə duman olacağı gözlənilir. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 8-13, gündüz 24-29 dərəcə isti, dağlarda gecə 7-12, gündüz 18-23 dərəcə isti olacaq

# Türkiyə ermənilərin iki qardaş ölkənin bayrağını yandırmasına reaksiya verdi



## Həmid Qaradəniz: "Bu hərəkəti şiddət və nifrətlə qınayırıq"

**Aprelin 24-də Ermənistan qondarma erməni soyqırımı ilə bağlı keçirdiyi aksiyada Azərbaycanın və Türkiyənin bayrağını yandırdı. Bir çoxları bunu cəbhə bölgəsindəki son 4 günlük müharibədəki üstünlüyümüzün nəticəsi kimi qiymətləndirsə də, bunun əksini düşünənlər də oldu. Hətta bizim də cavab olaraq erməni bayrağını yandırmağımızı istəməyən, bunun yanlış bir addım olduğunu düşünənlər də kifayət qədər idi.**

**Türkiyə səfirliyinin mətbuat məsələləri üzrə müşaviri Həmid Qaradəniz** "Yeni Müsavat"a açıqlamasında ermənilərin bu hərəkətini pisləyib dedi: "Biz ermənilərin bu hərəkətini şiddət və nifrətlə qınayırıq. Türkiyə və Azərbaycan qardaşlığı onsuz da onları narahat edirdi. İki bayrağı yandırmaları onların sıxıntılarının, nifrətlərinin qat-qat artdığını göstərir. Biz də bunu nifrətlə qınayırıq. Təxmin edirəm ki, Türkiyə prezidenti gələndə əgər ona bu mövzuda bir sual yönələrsə, bir açıqlama verəcək".

**Maraqlıdır, Azərbaycan müxalifətinin bu məsələyə münasibəti necədir? Müsavat Partiyasının başqan müavini Elman Fəttah bu nifrətin 100 ildir ki, davam etdiyini dedi:** "Baş vermiş erməni soyqırımı hadisəsi əslində bu coğrafiyanın tamamında baş verir. Anadoluda baş verən qırğınlar Naxçıvana keçir. Andronikin törətdiyi qırğınların çoxu Naxçıvan ərazisinə düşür. Erməni millətinin gözündə Türkiyə türkləri, Azərbaycan türkləri və Türkiyə cümhuriyyəti və Azərbaycan dövləti arasında bir fərq yoxdur. Heç təsadüfi deyil ki, ermənilər bizə türk deyirlər, bizə başqa etnik ad qoymurlar. Bu baxımdan Türkiyə və Azərbaycan bayrağının yandırılması yeni bir şey deyil. 100 il sonra da Anadolu və Qafqaz türklərinə qarşı nifrət eyni qaydada davam edir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bunun epizodik baş verən bir hadisə olduğunu dedi:** "Ermənilərin bayrağımızı yandırması epizodik baş verən hadisədir. Ağıllarına gələn tərəflər müxtəlif zamanlarda müxtəlif hərəkətlər ediblər. Ona görə də bunu 4 günlük savaşla bağlamaq düzgün deyil. Mən bunu Ermənistanın Azərbaycanla savaşı, psixoloji düşmənçilik durumu ilə əlaqələndirirəm. Mən onların bu hərəkətini zəiflik kimi qiymətləndirmirəm. Adamlar Dağlıq Qarabağı, 7 rayonumuzu işğal ediblər, bunun nəyi zəiflikdir?! Azərbaycanın torpaqlarının 20 faizini işğal edib öz bayraqlarını sancıblar. Bizim onların burda bayraqlarını yandırmağımızın nə faydası var?! Adama deyərlər ki, elə gücün çatır, get oradakı bayrağı yandır və o torpaqlara öz bayrağını sanc".

**ADP sədri Sərdar Cəlaloğlu bu hərəkətin ermənileri ifşa etdiyini dedi:** "Ermənilər bu hərəkətləri ilə sübut etdilər ki, heç vaxt genosid adlı hadisə olmayıb. Çünki onlar Xocalıda, 1918-ci ildə Azərbaycanda genosid törədiblər. Əgər onlar genosid günü Azərbaycanın və Türkiyənin bayrağını yandırıblarsa, erməni genosidinin olmadığını bunun ənənəvi erməni-türk düşmənçiliyi olduğunu ortalığa qoyublar ki, bu da onların ifşa olunması deməkdir. Biz türkük, bizim qanımızda türk qanı axır. Ermənilər isə kökü bəlli olmayan bir millətdir. Atatürk Yunanıstanla müharibədə yunan generalları ilə danışığa gedəndə görür ki, yunan bayraqlarını ayaq altına atıblar. Bayrağı qaldırır, deyir ki, məğlub da olsa, düşmən də olsa bu bir ölkənin bayrağıdır. Bayrağı ayaq altına atmazlar. Biz gərək Atatürk əxlaqı ilə yaşayaq. Ermənistanla nə qədər düşmən olsaq da bir bayrağı yandırmaq nə deməkdir? Qarabağ, eləcə də genosid məsələsində kifayət qədər ədalətli mövqe tutan ermənilər də var. Onlar da həmin bayraq altında yaşayırlar. Ermənilərin hamısı Sərkisyan kimi dələduz deyil. Ona görə də bayraqları yandırmaqla nəyəsə nail olmaq mümkün deyil. Biz cəbhədəki aqressiv ermənilәri yandırmalıyıq. Qoy ermənilər bayraqları yandırmaqla məşğul olsunlar".

❑ Günel MANAFLI

# Rusiya kanallarının Azərbaycanda yayımını dayandıraqmı...

## Vəziyyət belə davam edəcəyi təqdirdə MTRŞ həmin telekanallarla bağlı ölçü götürəcək

**Son bir ayda cəbhədə baş verən proseslər Rusiya mediasının Qarabağ məsələsində qərəzli mövqeyini bir daha üzə çıxardı. Xüsusən tok-şou səviyyəsində, aparıcıların davranışı, Azərbaycana qarşı açıq qərəzləri azərbaycanlı tamaşaçılar üçün yenilik olmadı. Verilişlərdə Azərbaycanın mövqeyini müdafiə edən azərbaycanlı jurnalist Fuad Abbasova qarşı birləşmələri, qərəz nümayiş etdirmələri heç kəsə sirr deyil. Hətta rus jurnalistlərin, aparıcıların qeyri-obyektiv münasibətinə qarşı təkbaşına vuruşan F.Abbasovun çalışdığı "İhlas" Xəbər Agentliyindəki işini itirməsi də bu proseslərin sonucu idi.**



Amma bütün bu proseslərin fonunda Azərbaycanda Rusiyanın qərəzli kanallarının yayımına qadağa qoyulmaması da sual doğuran məqamlardandır. Bu günə qədər dünyada belə təcrübə özünü göstərib. Ukrayna ilə Rusiya arasındakı gərginlik zamanında Ukrayna ümumən ölkədə Rusiya kanallarının yayımını dayandırmış, həmin tezlikdə pornoqrafik filmlər nümayiş etdirirdi. İndiki halda isə Azərbaycanın Rusiya kanallarının tezliyinə qadağa qoyması hansısa formada mümkündürmü?

Hazırda Azərbaycanda "Azerspace-1" peyki ilə Rusiyanın "Mir 24", "Krusel", "TV Zvezda", "Europa Plus TV", STS, "TV 3 Russia", "Pətniüa", "Life News", "A-One", RU TV, "Mult", "Moskva Doverie" və REN TV kanallarının yayımı həyata keçirilir. Azərbaycanın "Azərspace-1" peyki ilə yayımlanan TV və radio kanallarının sayı 120-dən çoxdur.

Amma tanınmış media ekspertləri bu kanalların yayımına qadağa qoyulmasını çıxış yolu hesab etmir. **"Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı** hesab edir ki, Rusiya kanallarının yayımını dayandırmaq olar. Amma bununla onların mövcudluğuna son qoyulmayacaq.

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, Rusiya kanallarının Azərbaycanda yayımına qadağa qoyulması çıxış yolu deyil. Onun fikrincə, bu, straus effektinə bənzəyir. "Mən başımı aşağı salmışam, səni görmürəm" məntiqinin müasir dünyada effekti olmadığını düşünən M.Əliyevin fikrincə, əksinə, belə verilişlərin yayımının davam etdirilməsi məsləhətdir:** "Bu, hansısa formada yerli auditoriyaya təsir edir. Bu cür verilişlər vətəndaşları Rusiyadan uzaqlaşdırır və neqativ reaksiya doğurur, Rusiyaya qarşı münasibət pisləşir. Ukrayna bunu edibsə, özünün ziyanına olub. Sən bilməlisən ki, qarşındakı kimdir. Bunu bilmək üçün də gərək xəbərləri oxuyub izləyəsən".

**M.Əliyev hesab edir ki, ümumiyyətlə Rusiya mətbuatında Azərbaycan əleyhinə təbliğat aparılması ilə bağlı vahid bir komandanın verilməsi hiss olunmur:** "Mütəşəkkil şəkildə siyasət yoxdur. Amerikaya qarşı aparılan hücumlar vardı, yuxarı səviyyədə dəstəklənirdi. Bu, həmişə görünür. Amma Azərbaycana qarşı belə bir xətt aparılmayıb. Ümumi əhval isə göstərir ki, Rusiya mətbuatında ermənipərəstlər çoxdur. Onlar orda çoxluq təşkil edir. Bu, onların böyük siyasəti idi".

**Müsahibimizin fikrincə, qadağa ilə heç nəyə nail olmaq mümkün deyil:** "Kabel televiziyalara qadağa olsa, insanlar internet vasitəsilə baxacaq. Yeri gələndə erməni kanallarına da baxmaq lazımdır. Hər bir informasiya axınını bilmək, öyrənmək lazımdır. Onu bağlamaqla heç nəyə nail olmaq mümkün deyil. Bu, subyektiv idealizmdir: "Görmürəm, eşitmirəm, bilmirəm nə baş verir". Belə çıxır ki, sabah BBC bizi tənqid etsə, deməliyik ki, onları izləməyək? Bu, sovet psixologiyasına bənzəyir".

**Milli Teleradio Şurasında da bununla bağlı hər hansı qərar yoxdur. Milli Teleradio Şurasının (MTRŞ) Monitorinq şöbəsinin müdiri Təvəkkül Dadaşov "Yeni Müsavat"a açıqlamasında dedi ki, artıq bu məsələ müzakirə olunub. Onun sözlərinə görə, vəziyyət belə davam edəcəyi təqdirdə MTRŞ həmin televiziyalarla bağlı ölçü götürəcək. T.Dadaşovun fikrincə, Rusiya TV-lərinin anti-Azərbaycan kampaniyası getdikcə səngiməkdədir.**

"Rusiyanın bəzi televiziya kanallarındakı Azərbaycan əleyhinə aparılan təbliğat pik həddə çatarsa, daha geniş dairədə gedərsə, onunla bağlı məsləhətli şəkildə qərar vermək olar. Bu gün məsələ ilə bağlı konkret qərar hansısa qərar mövcud deyil. Rusiya televiziyaları Azərbaycan ərazisində peyk yayımı ilə və kabel televiziyası şəbəkəsində yayımlanır. Bu məsələlərə bağlı kabel yayımçılarına müvafiq göstərişlər verilə bilər. Hazırda bununla bağlı ciddi şəkildə göstəriş və qərar yoxdur. Ona görə də bu məsələyə hələ ki digər reaksiya verilmir".

❑ Sevinc TELMANQIZI

# Bakıdakı atışmada güllələnən şəxsi də həbs etdilər

## Vəkil: "4 güllə yarası almış şəxsin həbs olunmasına nə ehtiyac vardı?"



**Badamdar qəsəbəsindəki "Bulaq" restoranında baş verən insident zamanı 4 güllə yarası alan Fuad Fərahim oğlu Əsgərov barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.**

Bu haqda musavat.com-a açıqlama verən F.Əsgərovun vəkili Ceyhun Yusifov deyib ki, müvəkkilinin həbsini əsassız və qanunsuz sayır: "Fuad Əsgərov işdə zərərçəkəndir. Bədənində 4 güllə yarası var. Onu Səbayel Rayon Məhkəməsinə təcili tibbi yardım maşınında gətirdilər. Məhkəmə zalına isə Fuad Əsgərov xərəkdə gətirildi. Vəziyyəti olduqca ağır idi. Hakim Rauf Əhmədov buna baxmayaraq barəsində 4 aylıq həbs-qətimkan tədbiri haqda qərar verdi".

Vəkil hesab edir ki, müvəkkili və onun tanışı olan şəxsin həbsi əsassızdır: "Fuad Əsgərovun sağlıq durumu ağırdır. Heç bir lüzum, zərurət olmadan barəsində 4 ay həbs qətimkan tədbiri seçdilər. Fuad Əsgərov müalicə olunduğu xəstəxanada polis nəzarəti altında idi. 4 güllə yarası almış şəxsin həbs olunmasına nə ehtiyac vardı? Üstəlik, bu şəxs zərərçəkəndir. Ona odlu silahdan atəş açılıb. Bu halda F.Əsgərovun həbsə alınması heç bir qanuna sığmır. F.Əsgərovun belə bir ağır durumda həbsə alınması humanizm prinsiplərinə də ziddir. İş materiallarında da Fuad Əsgərovun və onun tanışı Bəhruz Rəfiyevin güllələndiyi haqda qeydlər var. Hər iki şəxs "Bulaq" restoranında əliyalın olublar. Belə təəssürat yaranır ki, istintaq orqanı atəş açanla atəşə məruz qalanı səhv salıb. Fuad Əsgərovun həbsi ağlasığmazdır".

Qeyd edək ki, bir neçə gün əvvəl baş verən silahlı insidentə görə Tofiq Qaramizadə, Hüseyn Hüseynov və Bəhruz Rəfiyevin barələrində həbs-qətimkan tədbiri seçilib. F.Əsgərovun tanışı Bəhruz Rəfiyevin vəkili Adəm Məmmədov bildirib ki, hadisə zamanı hüquqlarını müdafiə etdiyi şəxs təsadüfən "Bulaq" restoranında olub: "Bəhruz Rəfiyev restoranda nə dalaşıb, nə də söyüş söyüb. O, heç kimi vurmayıb. Bəhruz əlindən güllə yarası alıb".

Yada salaq ki, olay aprelin 20-də Səbayel rayonunun Badamdar qəsəbəsində yerləşən "Bulaq" restoranında baş verib. Hadisə zamanı Fuad Əkbərov və Bəhruz Rəfiyev tapançadan açılan atəş nəticəsində yaralanıb, 30 yaşlı Süleyman Abdullayev isə bıçaqlanıb. Hər iki yaralı Bakıdakı özəl xəstəxanalardan birinə yerləşdirilib. Hüquq-mühafizə orqanlarına olay haqda ABŞ-ın Bakıdakı səfirinin müavini Derek Hoqan məlumat verib. Açılan atəşlərdən biri səfir müavinin istifadəsində olan maşına dəyib. Polis və prokurorluq orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxt sakinləri Tofiq Qaramizadə, Hüseyn Hüseynov və B.Rəfiyev tutulub. Faktla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 29,120-ci (qəsdən adam öldürməyə cəhd) və 221.2.1-ci (xuliqanlıq, bir qrup şəxs tərəfindən və ya təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT

Son səhifə

N 89 (6410) 26 aprel 2016



## İlanla selfi çəkdirmək istədilər, xəstəxanaya düşdülər

Omsk şəhərinin iki sakini ilanla selfi çəkdirmək istədikləri zaman bəlaya düşüblər. Belə ki, ilan onların hər ikisini sancıb və onları xəstəxanaya aparmağa məcbur olublar. Selfi eşqinə düşənlərin ikisi də balıqçı olub. Həkimlərin müdaxiləsindən sonra balıqçıların durumu düzəlib. Zərərçəkənlər bildiriblər ki, əslində onlar ilanı balıqla qarışıq saldıqları üçün(!) bu aqibətlə üzləşiblər. Lenta.ru saytı xatırladır ki, bu, heyvanlarla selfi çəkdirmək istədiyi zaman insanların xəstəxanaya düşdüyü ilk hal deyil. Belə ki, ötən ilin yayında Krasnodar vilayətindəki çimərlikdə kobra ilə selfi çəkdirmək istəyən qadını kobranın vurması hadisəsi ciddi səs-küy yaratmışdı.



## İnternetdəki təcrübəni təkrarlayan yeniyetmə öldü

Amerikanın Ohayo ştatında yaşayan yeniyetmə youTube-də gördüyü bir eksperimenti təkrarlamaq istəyərkən onu elektrik cərəyanı vurub və dünyasını dəyişib. Bu barədə "Reuters agentliyi xəbər verib. Uşağın valideynləri onu qarajda tapıblar və təcili yardıma müraciət ediblər. Xəstəxanada həkimlər onun ölümünü rəsmən təsdiqləyiblər. Polis işçisi Cared Oliver bildirib ki, yeniyetmənin həyata keçirmək istədiyi təcrübə məktəb tapşırığı olmayıb. O, bunu şəxsi istəyinə uyğun həyata keçirib. Polis qarajda "İakov nərdivanı" adlanan, təcrübə üçün lazım olan əşyanı aşkar edib. Sözügedən təcrübə zamanı olduqca yüksək gərginlik nümayiş olunur. Sözügedən videoda bu təcrübənin necə keçirilməsi barədə məlumat, habelə onun ölüm riski yaratması barədə xəbərdarlıq da qeyd edilir. Üstəlik, təcrübənin həyata keçirilməsi üçün lazım olan avadanlıqları yeniyetmələr asanlıqla əldə edə bilər.

# Komada olan insanla danışıblar

Kanadalı neyrobioloqlar komada olan insanla ünsiyyət qura biliblər. Rusiya mətbuatının xəbərinə görə, Ontario İnstitutunun alimləri 12 il bundan əvvəl koma vəziyyətinə düşmüş 29 yaşlı Skott Rautlinin beynini ən kiçik impulsları belə təyin edə biləcək yeni skanerlərlə müayinə ediblər. Bu zaman xəstəyə ən adi, "tennis oynaya bilirsən?", "hə - yox" cavabı alına biləcək elementar suallar verilib. Nəticədə onun "hə" və ya "yox" cavabı verməsindən asılı olaraq, impulsların da müxtəlif olduğu üzə çıxıb. Bununla da xəstənin əqli fəaliyyətinin aktiv olduğu sübut edilib. Beləliklə, alimlər bundan sonra veqetativ vəziyyətdə olan insanla əlaqə qurmaq imkanı əldə ediblər.



# Aqressiv kişilər daha çox xəstələnir

**Alimlər iddia edirlər ki, əsəbi, yorğun və aqressiv kişilər ürək-damar xəstəliklərinə daha çox tutula bilərlər. Güclü emosional-psixi gərginlik müxtəlif xəstəliklərin yaranmasına səbəb ola bilir.**

10 il ətraf mühitə nifrət və depressiya kişilərdə immun sistemə ziyan vurur ki, bu da onlarıda ürək xəstəliklərinə səbəb olur. Dyuk adına ABŞ Universitetinin alimləri aşkarlayıblar ki, mənfi emosiyalar ikinci qrup şəkər xəstəliyinin yaranmasına səbəb ola bilər. Hirsli, əsəbi və aqressiv kişilərdə C3 zülalın miqdarı artır ki, bu da xroniki immun sisteminin zəifliyinə gətirib çıxarda bilir.

Tibb işçiləri Vyetnam müharibəsində iştirak etmiş 313 veteranın 10 illik sağlamlığını müşahidə ediblər. Qan nümunələrinə baxılmış, psixoloji testlər aparılıb, C3 və C4 zülalların miqdarı müşahidə olunmuşdur. Daha çox nifrət və depressiya hissləri keçirən kişilərdə C3 zülalı 7,1% artırmış. Bu artım öz növbəsində bu kişilərdə ürək sağlamlığına mənfi təsir göstərib.





## Yaponlardan təbii fəlakətə qarşı möcüzə alət

Təbii fəlakətlərlə ən çox üzləşən Yaponiyada əhali üçün praktik bir cihaz hazırlanıb. Bir çətirdən daha kiçik ölçüləri olan bu cihazın içində təbii fəlakət zamanı insanın təcili surətdə ehtiyac duyacağı hər şey var. Olduqca praktik və şıq olan bu alətin adı isə "Minim+Aid"dir. Minimal bir yardım aləti funksiyasını daşıyan yeni kəşf 5 santimetr ölçüdə bir balon şəklindədir. Su keçirməyən və sel olacağı halda suyun üzündə qalmağa yardım edən balonun içində bir fit, radio, fənər, içməli su və təcili yardım əşyaları yer alır. Çiyindən keçirilərək taxıla bilən "Minim+Aid" bir çətir kimi də evin bir küncündə saxlana bilər.




**QOÇ** - İxtiyarınızda olan bu təqvimdə bacardığınız qədər təmkin nümayiş etdirməyə çalışın. Yaxşı olar ki, yorucu işlərə ara verib istirahət edə, həzin bir musiqiyə qulaq asasınız.

**BUĞA** - Əşyalarla, xüsusən də elektrik cihazları ilə ehtiyatlı davranın. Əks təqdirdə, xəsarət ala bilərsiniz. Axşama yaxın əsəblərinizi sakitləşdirmək üçün gəzintiyə çıxın.

**ƏKİZLƏR** - Əgər bu ayı səmərəli şəkildə yekunlaşdırmaq fikriniz varsa, bu gün ciddi ölçü götürməlisiniz. Xəyallar qoynundan düşüb real addımlar atın. Gün ərzində müştərək fəaliyyətlə məşğulluq uğurludur.

**XƏRÇƏNG** - Bir qədər gərgin situasiyalara cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ayrı-ayrı şəxslərlə davranışlarınızı tənzimləməlisiniz. Ağlınız kəsməyən işlərə girişməyin.

**ŞİR** - Fəaliyyətdə aktivlik olmadığını nəzərə alıb müqəddəs ziyarətgahlardan birinə baş çəkin, dualarınızı əskik etməyin. Bu gün şəxsi həyatınızda böyük irəliləyişlər start götürməlidir.

**QIZ** - Dünya niyə xoşunuza gəlmir? Bəlkə səbəbi təbiətdə deyil, insanlarda və daha çox da özünüzdə arayasınız?! İxtiyarınızda olan bu təqvimdə yalnız bu barədə düşünün ki, nicat tapasınız.

**TƏRƏZİ** - Yeni əlaqələr yaratmaq fikriniz varsa, saat 15-ə qədər əzmkarlığınızı artırın. Söhbət və müzakirələr zamanı özünüzü qürurlu aparmağa çalışın. Sonrakı saatlarda istirahət edin.

**ƏQRƏB** - Planetlərin bürcünüzdəki neqativ düzülüşü səhhətinizə mənfi təsir göstərə bilər. Odur ki, ehtiyatlı davranış, qidalara xüsusi diqqət yetirmək sizin üçün vacibdir. Yeni işlərə başlamayın.

**OXATAN** - Gileylərinizi qabartmayın. Özünüzü təmkinli, eyni zamanda qürurlu göstərin. Düşünülməmiş qərar çıxarmaq, risk etmək sizə uğur gətirməyəcək. Sevgi amilinə xüsusi diqqət ayırın.

**OĞLAQ** - Ehtiyatlı olun. Göy qübbəsi ciddi yanlışlığa yol verə biləcəyinizi bəyan edir. Mövcud situasiyaları kontrolda saxlamağa çalışın. Ürəyinizcə olmayan təklifləri düşünmədən təxirə salın.

**SUTÖKƏN** - Maliyyə sövdələşmələrində iştirak etmək üçün ideal gündür. Şəxsi büdcənizi artırmaqdan ötrü bir az siyasətçi olun. Axşama yaxın çoxdan görmədiyiniz adamlarla rastlaşacaqsınız.

**BALIQLAR** - Görəcəyiniz işləri əvvəlcədən konkretləşdirin. Təbiətin bu gözəl ərəfəsi karyeranız üçün həddindən ziyadə uğurlu olacaq. Amma bugünkü vaxtınızı konkret olaraq sevgiyə həsr etməyə çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İtən pişik 6 il sonra sahibəsinə qovuşdu



Böyük Britaniyada Hloi ləqəbli pişik 6 illik ayrılıqdan sonra sahibəsinə qovuşub. 2010-cu ildə veterinara aparılan zaman sahibəsinin qucağından qaçan pişiyi tapmaq asan məsələ olmayıb. Belə ki, sahibəsi ilk vaxtlar onu maşın vurduğunu düşünüb və axtarmaqdan vaz keçib. Amma bu illər ərzində Hloiyə yaşlı bir qadın baxıb. Amma yeni sahibəsi yaşlanıb, pişiyə baxa bilməyəcək duruma çatanda yaxınları pişiyi heyvan sığınacağına qoyublar. Pişiyin mikroçipində gerçək sahibəsinin ad-soyadı qeyd olunduğu üçün onların qovuşması çətin məsələ olmayıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.